# AZƏRBAYCANIN XƏZƏRYANI XANLIQLARININ ƏHALİSİ (XVIII ƏSRİN II YARISI - XIX ƏSRİN ƏVVƏLLƏRİ)

**İradə Məmmədova**
*ORCID: 0009-0006-8203-2488, Azərbaycan Milli Elmlər Akademiyası*
*A.A.Bakıxanov adına Tarix İnstitutu, dosent, t.ü.f.d.,*
*e-mail: irade.mammadli@gmail.com*

## THE POPULATION OF THE CASPIAN COASTAL KHANATES OF AZERBAIJAN (THE SECOND HALF OF XVIII-EARLY XIX CENTURIES)

**Irada Mammadova**

**Summary**

In the article on the basis of the sources the population of the Caspian littoral khanates in the second half of the eighteenth - the early nineteenth centuries is investigated.

There were 4 thousand houses in 1770 in the Derbent khanate- one of the Caspian littoral khanates of Azerbaijan. 100 houses in Derbent belonged to Armenians, and the rest were owned by Muslims. And in 1825, 10165 Muslim Azerbaijani Turks, 89 Jews and 40 Armenians lived in Derbent. In 1831, 90.4% of the population was Muslims in the town of Derbent, 3.6% Armenians of the Christian Gregorian sect and 6% were those who served in the Jewish religion.

In 1796, in Guba khanate located in the Caspian coastal area (with the exception of Derbent and the surrounding areas) there was only 1 town and 245 villages, in total 6364 yards (houses), and in 1810, in Guba province there were 5698 yards (houses). In 1826, 52 thousand Muslims lived in Guba region; the Armenians were not recorded here. In 1832, 1984 Tatars lived in Guba town, and 42456 Tatars, 204 Armenians, 1450 Jews lived in the 292 villages of Guba province.

In 1796, in Baku khanate located on the Caspian Sea coastal area was registered 1820 houses. In early nineteenth century Armenians lived in total of 24 houses in Baku, a, while the rest of the population was composed of Azerbaijani Turks. Armenian population did not live in the villages of Baku at all. In 1810, in total 7622 people lived in Baku khanate, while in 1816 the number of houses had reached to 3862.

During the Shamakhy Khan Mustafa Khan's reign more than 10 thousand people lived in the fortress Fitdaghi. In 1795, 4-5 thousand people lived in Shamakhy town. In 1826, 52 thousand Tatars and 13 thousand Armenians lived in Shirvan province.

During Qara Khan's reign (1747-1786) there were about 4 thousand yards (houses) in Lankaran khanate. At the beginning of the nineteenth century, there lived about 40 thousand people in the khanate and majority of the population in the khanate were Azerbaijani Turks. As a result of the colonial policy of Russia the population of Lankaran khanate reduced, after the occupation of khanate by Russian troops few Christian population began to live in Lankaran town.

In the second half of the eighteenth - beginning of the nineteenth century, beyond doubt the Turkic-Muslim population in the Caspian coastal khanates outnumbered.

**Keywords:** Derbent khanate, the ethnic composition of the population, the Baku Khanate, the Shamakhy khanate, Lankaran town, Guba province.

## AZƏRBAYCANIN XƏZƏRYANI XANLIQLARININ ƏHALİSİ (XVIII ƏSRİN II YARISI - XIX ƏSRİN ƏVVƏLLƏRİ)

**İradə Məmmədova**

**Xülasə**

Məqalədə XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Xəzəryanı xanlıqların əhalisi qaynaqlar əsasında araşdırılmışdır. Azərbaycanın Xəzəryanı xanlıqlarından olan Dərbənd xanlığında 1770-ci ildə 4 min ev var idi. Dərbənddəki evlərin 100-ü ermənilərə, qalanları isə müsəlmanlara məxsus idi. 1825-ci ildə isə Dərbənddə 10165 nəfər müsəlman Azərbaycan türkü, 89 yəhudi və 40 erməni yaşayırdı. 1831-ci ildə Dərbənd şəhərində əhalinin 90,4%-ni müsəlmanlar, 3,6 %-ni xristianlığın qriqoryan sektasından olan ermənilər, 6%-ni isə yəhudi dininə xidmət edənlər təşkil edirdi.

Xəzər sahilindəki Quba xanlığının ərazisində (Dərbənd və ətrafı istisna olmaqla) 1796-cı ildə cəmi 1 şəhər və 245 kənd, ümumilikdə 6364 həyət, 1810-cu ildə Quba əyalətində ümumilikdə 5698 həyət vardı. 1826-cı ildə Quba əyalətində 52 min müsəlman yaşayırdı, ermənilər burada qeydə alınmamışdı. 1832-ci ildə Quba şəhərində 1984 nəfər tatar, Quba əyalətinin 292 kəndində 42456 nəfər tatar, 204 nəfər erməni, 1450 nəfər yəhudi yaşayırdı.

Xəzər sahilində yerləşən Bakı xanlığında 1796-cı ildə 1820 ev qeydə alınmışdı. XIX əsrin əvvəllərində Bakı şəhərində ermənilər cəmi 24 evdən, qalan əhali isə Azərbaycan türklərindən ibarət olmuşdu. Bakı kəndlərində erməni əhali ümumiyyətlə yaşamırdı. 1810-cü ildə Bakı xanlığında ümumilikdə 7622 nəfər yaşayır, 1816-cı ildə isə evlərin sayı 3862-ə çatırdı.

Şamaxı xanı Mustafa xanın hakimiyyəti dövründə isə Fitdağı qalasında 10 min nəfərdən çox əhali yaşayırdı. 1795-ci ildə Şamaxı şəhərində 4-5 min nəfər yaşayırdı. 1826-cı ildə Şirvan əyalətində 52 min nəfər tatar, 13 min nəfər erməni yaşayırdı.

Lənkəran xanlığının ərazisində Qara xanın hakimiyyəti dövründə (1747-1786) 4 minədək həyət olmuşdur. XIX əsrin əvvəllərində xanlıqda təxminən 40 min nəfər yaşayırdı və əhalinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. Rusiyanın müstəmləkə siyasətinin nəticəsində Lənkəran xanlığının əhalisinin sayı azalmış, xanlığın rus qoşunları tərəfindən işğalından sonra Lənkəran şəhərində az da olsa xristian əhali yaşamağa başlamışdır.

XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Azərbaycanın Xəzəryanı xanlıqlarında türk-müsəlman əhali səksiz üstünlüyə malik idi.

**Açar sözlər**: Dərbənd xanlığı, əhalinin etnik tərkibi, Bakı xanlığı, Şamaxı xanlığı, Lənkəran şəhəri, Quba əyaləti

## НАСЕЛЕНИЕ ПРИКАСПИЙСКИХ ХАНСТВ АЗЕРБАЙДЖАНА (ВТОРАЯ ПОЛОВИНА XVIII - НАЧАЛО XIX ВЕКА)

**Ирада Мамедова**

**Аннотация**

В статье на основе источников исследовано население прикаспийских ханств во второй половине XVIII - начале XIX века.

Дербентском ханстве в 1770 году насчитывалось 4 тысячи домов. 100 домов в Дербенте принадлежали армянам, остальные – мусульманам. В 1825 году в Дербенте проживало 10 165 азербайджанских тюрко-мусульман, 89 евреев и 40 армян. В 1831 году 90,4% населения Дербента составляли мусульмане, 3,6% - армяне григорианской секты христианства и 6% - евреи.

На территории Кубинского ханства на Каспийском побережье (исключая Дербент и его окрестности) в 1796 году было всего 1 город и 245 сел, всего 6364 двора, а в 1810 году в Кубинской губернии всего 5698 дворов. В 1826 году в Кубинской губернии проживало 52 тысячи мусульман, армяне здесь не числились. В 1832 году в городе Кубе проживало 1984 татар, в 292 селах Кубинской губернии проживало 42456 татар, 204 армяни и 1450 евреев.

В 1796 году в Бакинском ханстве, расположенном на берегу Каспия, было зарегистрировано 1820 домов. В начале XIX века армяне в городе Баку насчитывали всего 24 дома, а остальное население состояло из азербайджанских тюрков. Армянское население вообще не проживало в бакинских селах. В 1810 году в Бакинском ханстве проживало 7622 человека, а в 1816 году число домов достигло 3862.

Во время правления Шемахинского хана Мустафа-хана в крепости Фитдаг проживало более 10 000 человек. В 1795 году в городе Шемахи проживало 4-5 тысяч человек. В 1826 году в Ширванской губернии проживало 52 000 татар и 13 000 армян.

Во время правления Кара-хана (1747-1786) на территории Лянкяранского ханства насчитывалось 4 тыс. дворов. В начале XIX века в ханстве проживало около 40 000 человек, большую часть населения составляли азербайджанские тюрки. В результате колониальной политики России население Лянкяранского ханства сократилось, а после оккупации ханства русскими войсками в городе Лянкяране стало проживать небольшое христианское население.

Во второй половине XVIII - начале XIX века тюрко-мусульманское население имело абсолютное преимущество в прикаспийских ханствах Азербайджана.

**Ключевые слова**: Дербентское ханство, этнический состав населения, Бакинское ханство, Шемахинское ханство, город Лянкяран, Кубинский уезд.

**Giriş.** XVIII əsrdə Azərbaycanın Xəzəryanı xanlıqlarının kameral təsvirinin olmaması burada yaşayan əhalinin sayının dəqiq göstərilməsini mümkünsüz edir. Buna baxmayaraq tədqiq edilən dövrdə Azərbaycanda olmuş səyyahların məlumatları, həmçinin Xəzəryanı xanlıqların işğalı zamanı rus məmurlarının tərtib etdikləri hərbi-statistik məlumatlar və digər qaynaqlar Xəzəryanı xanlıqların əhalisinin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir. XIX əsrin əvvəllərində Azərbaycanın şimal xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalından sonra rus məmurlarının tərtib etdikləri kameral təsvirlər bir sıra hallarda qüsurlu olsa da mühüm əhəmiyyətə malikdir.

**Dərbənd xanlığı**. Dərbənd xanlığının ərazisi şimaldan usminin torpaqları, qərbdə Tabarasanla, cənub-qərbdə qazuqumuklu Xanbutayın (II Surxay xanın) mülkləri ilə həmsərhəd idi. Nəzərə alsaq ki, XVII əsrdə Azərbaycanda olmuş səyyahların məlumatı Dərbənd şəhərində nəinki ermənilərin, hətta xristianların belə yaşamadıqlarını sübut edir, onda ermənilərin Dərbəndə XVIII əsrdə köçürüldüklərini demək olar[1].

XVIII əsrin 70-ci illərində Dərbənddə 4 min ev var idi. Dərbənddəki evlərin 100-ü ermənilərə, qalanları isə müsəlmanlara məxsus idi. 1792-ci ildə Dərbənd şəhərində 2200 ev[2], 1796-cı ildə isə 2189 ev var idi[3] (F. F. Simonoviç və A. Q. Serebrova görə isə evlərin sayı 2180 idi[4]). 1796-cı ilə aid digər mənbədə isə Dərbənddə 2090 evin olduğu, bunlardan 90-nın ermənilərə məxsus olduğu bildirilir.[5] Arxiv sənədinə görə, Dərbənd xanının mülkü sayılan Salyanda sultan Qubad otururdu və burada iranlılar (Azərbaycan türklərinin – İ.M.) 220-dək evdən ibarət idilər. Salyanın 26 kəndində 1100-ə qədər ev vardı.[6]

**Cədvəl 1**

**Dərbənd şəhərinə aid evlər və etnik mənsubiyyəti**

| **Dərbənd şəhərinə məxsus evlər və etnik mənsubiyyəti** | | | |
|---|---|---|---|
| **İl** | **Müsəlmanlara (türklərə) məxsus** | **Xristianlara (erməni) məxsus** | **Evlərin sayı** |
| XVIII əsrin 70-ci illəri | 3900 | 100 | 4000 |
| % | 97,5 | 2,5 | 100 |
| 1792-ci il | ---- | ---- | 2200 |
| 1796-cı il Butkova görə | 2096 | 93 | 2189 |
| % | 95,8 | 4,2 | 100 |
| 1796-cı il A. Serebrova görə | --- | ---- | 2180 |
| 1796-cı il Simonoviçə görə | 2090 | 90 | 2180 |
| % | 95,9 | 4,1 | 100 |

**Mənbə:** Описание Северного и Южного Дагестана, Персии, Ширванской и других Закавказских провинций, составленное майором Серебровым в 1796 г. // РГВИА, ф.846, оп.16, д.18474. ч. II, лл. 18 об., 34-35, 44; Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 18 об.-19; Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// ИГЭД, М., 1958, с.141-144, 150; Серебров А.Г. Историко-этнографическое описание Дагестана. 1796 г. // ИГЭД, Москва, 1958, с. 176; Бутков П.Г. Выдержки из проекта отчета о персидской экспедиции в виде писем. 1796 г. // ИГЭД, Москва, 1958, с. 202; ОРВЗ, ч. IV, Санкт-Петербург, 1836, с. 165; Məmmədova İ. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda əhalinin etnik tərkibi, "İdeal-Print" MMC, 2021, Bakı, s. 97.

---

[1] İbişov S. Quba xanlığının əhalisi, B., 2004, s. 140-141.

[2] Обозрение Российских владений за Кавказом (в стат., этнограф. топограф., и финан. отношениях), ч. IV, Санкт-Петербург, 1836, с. 165.

[3] Бутков П.Г. Выдержки из проекта отчета о персидской экспедиции в виде писем. 1796 г. // История, география и этнография Дагестана в XVIII – XIX вв. (под редакцией М.О.Косвена и Х.М. Хашаева). (ИГЭД), М. , 1958, с. 202.

[4] Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г. // ИГЭД, М. , 1958, с. 150; Серебров А.Г. Историко-этнографическое описание Дагестана. 1796 г. // ИГЭД, Москва, 1958, с. 176.

[5] РГВИА, ф. ВУА. д.18474, ч. 1, лл. 18-18 об..

[6] РГВИА, ф. ВУА. д.18474, ч. 1, лл. 42-42 об.

Cədvəl 1-dən Dərbənd şəhərində XVIII əsrin 70-ci illərində 97,5% təşkil edən türklərin 1796-cı ildə 95,8%-ə düşdüyünü, ermənilərin isə 2,5 %-dən 4,2% artdığını görmək olur.

Nəzərə alsaq ki, XVII əsrdə Azərbaycanda olmuş səyyahların məlumatı Dərbənd şəhərində nəinki ermənilərin, hətta xristianların belə yaşamadıqlarını[1] sübut edir, onda ermənilərin Dərbəndə XVIII əsrdə köçürüldüklərini demək olar.

Ermənilərin Dərbəndə köçmə olduğunu 1831-ci ildə ruslar tərəfindən aparılan Dərbənd şəhərinin kameral təsvirində Dərbənd şəhərində Quba xanları tərəfindən nəsillərinə bəy titulu verilmiş ailələrin arasında buraya Qızlar şəhərindən köçən Varlam Martinoviç Gözəlovun atasının adının da çəkilməsi sübut edir. Bu kameral təsvirə görə bəy titulunu təsdiq edən sənədi olanların içərisində Məşədi Əlibəy Əlibəy oğlunun babasına bu titulu Quba xanı Hüseynəli xan, Məhəmməd Rzabəy Məhəmməd Eminbəy oğlunun babasına, Cilikənd kəndinin bəyi Əli Nağıbəy Həsənbəy oğlunun babasına, Cəfər bəy Xoca Məhəmməd oğlunun babasına, Sultan bəy Zeynalabdin oğlunun babasına, Ağarza bəy İmamverdi bəy oğlunun babasına, Ağarza bəy Məhəmməd Sadıq oğlunun babasına, 3 kəndin məxsus olduğu Əmiralı bəy Məhəmməd Qasım oğlunun babasına, daha 6 kəndin bəyinin babalarına Quba xanı Fətəli xan, Ağabəy Nağıbəy oğlunun atasına bəy adını Quba xanı Şeyxəli xan vermişdir. Həmçinin Qızlar şəhərindən Dərbəndə köçən Varlam Martinoviç Gözəlovun atasına bəy adının Fətəli xan və Əhməd xan tərəfindən verildiyi bəlli olur.[2] Göründüyü kim Quba xanlığına Dərbənddən köçən bir nəfərə bəy titulunu Fətəli xan və Əhməd xan vermişdir.

1804-cü ildə şəhərdə 2 min ev var idi, əhalisinin sayı isə 10 min nəfər idi. Bunların 3 mindən çoxunu kişilər təşkil edirdi. Yaşlı, uşaq və qadınlarlarla birlikdə Dərbənd şəhər əhalisinin sayı 6 mindən çox idi.[3]

Dərbənd şəhərində 1810-cu ildə 1435 ailə (3953 nəfər kişi) müsəlman (Azərbaycan türkü – İ.M.), 28 ailə (56 nəfər kişi) erməni, 59 ailə (166 nəfər kişi) yəhudi yaşayırdı[4].

1811-ci ildə Dərbənd qalası və ətrafında 790 ailə, hər iki cinsdən 4740 nəfər sakin vardı[5].

F.N. Rtişşev 1813-cü ildə Dərbənd şəhərində 1522 evin olduğunu və 4175 nəfər kişinin yaşadığını qeyd edirdi[6].

1824-cü ildə şəhər əhalisinin say tərkibi 7 və ya 8 min nəfər təşkil edirdi.[7] Dərbənd komendantı fon Aşeberqin apardığı siyahıyaalmaya əsasən 1824-cü ildə Dərbənd şəhərində Azərbaycan türkləri 5407 nəfəri kişi, 4970 nəfəri qadın olmaqla 10377 nəfər, yəhudilər 230-u kişi, 214-ü qadın olmaqla 444 nəfər, ermənilər isə 136-sı kişi, 103 qadın olmaqla 239 nəfər təşkil edirdilər.[8]

1825-ci ildə isə Dərbənddə 10165 nəfər müsəlman Azərbaycan türkü, 89 yəhudi və 40 erməni yaşayırdı[9].

---

[1] XVII əsrdə Azərbaycanda olmuş səyyahlar Adam Oleari, Yan Streys Dərbənddə erməni və xristianların yaşamadığı yazırdı [Стрейс Я.Я. Три путешествия (перевод Э.Бородиной, редакция А.Морозова), ОГИЗ-СОЦЭКГИЗ, 1935; İbişov S. a.g.ə, s. 140-141].

[2] Камеральное описание города Дербента, составленное в 1831... л. 201-211 об.; Мамедова И.М. «Камеральное описание города Дербента» как один из источников в изучении населения города // «Актуальные проблемы науки и техники». Сборник научных статей II международной научно-практической конференции 15 июня 2010 г. Часть I, г. Кизляр, РД, с. 96-102.

[3] Ахвердов А.И. Описание Дагестана. 1804// РГАДА. ф. Ермоловых, д. 319, лл.1-22; Ахвердов А. И. Описание Дагестана. 1804// История, география и этнография Дагестана XVIII-XIX (далее ИГЭД), М., 1958, с. 219; Memmedova İ., Güney Kafkasya'nın Türk-Müslüman Ahalisi XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılın Başlarında (Rusya Arşiv Belgelerine Göre) // TURKUAZ Uluslararası Türk Dünyası Bilimsel Araştırmalar Dergisi, 1 (1). Ankara, Eğitim ve Bilim Politikaları Araştırma Derneği, 2020, s. 16.

[4] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (АРДТА), f.24, siy.1, iş 21, v. 44 арха; Ртищев Ф.Н. Сведения о Дагестане. 1813 // ИГЭД, М., 1958, с. 249.

[5] РГВИА, ф. 846, оп. 16, д. 18494, л. 1; Тормасов А.П. Выдержки из «Ведомости», содержащие сведения о численности населения Дагестана. 1811// ИГЭД, М., 1958, с. 237.

[6] Ртищев Ф.Н. Сведения о Дагестане. 1813 // ИГЭД, М., 1958, с. 249.

[7] ОРВЗ, ч. IV , с. 165.

[8] Hacıyev A. Dərbənd XIX – XX əsrlərdə (tarixi-etnoqrafiq tədqiqat), Bakı, "Turxan" NPB, 2017, s. 98-99.

[9] Mustafazadə T. T. Quba xanlığı, s. 77.

1831-ci il kameral təsvirinə görə Dərbənd şəhərində 1352 ailə tatar (Azərbaycan türkü – İ. M.), 3981 nəfər kişi (müsəlman qadınlar kameral təsvirə salınmırdılar – İ. M. ) yaşayırdı[1].

Dərbənd şəhərində yaşayan 66 (223 nəfər) bəy ailəsindən 64-ü (203 nəfər kişi) Azərbaycan türkü, 2-i (hər iki cinsdən 20 nəfər) isə erməni idi. Şəhərdəki din xadimləri 46 (128 nəfər) ailədən ibarət idi. Bu ailələrdən 42-si (111 nəfər kişi) müsəlman, 4-ü (hər iki cinsdən 17 nəfər) isə xristian idi[2].

Dərbənd qalası və ətrafında 131 ailə (356 nəfər kişi) tatar (Azərbaycan türkü – İ. M.), Dərbənd şəhərinə aid olan Sabnova kəndində isə 34 ailə (96 kişi) tatar yaşayırdı[3].

Dərbənd şəhərində 108 yəhudi ailəsi (hər iki cinsdən 504 nəfər) qeydə alınmışdı[4]. Burada xristian erməni ailələrinin sayı 58 (hər iki cinsdən 223 nəfər) idi. Qeyd etmək lazımdır ki, şəhərdəki ermənilər buranın yerli sakinləri deyildilər. Bunu reqistrator Xotyanovskinin məlumatları da təsdiq edir. Onun məlumatına görə, şəhərdə yaşayan 26 erməni ailəsi 1831-ci ilin kameral təsvirinə qədər heç bir yerdə qeydə alınmamışdılar. 19 erməni ailəsi bura Qızlar qəzasının Beketey kəndindən, 2 erməni ailəsi Həştərxandan, 10 erməni ailəsi isə Qızlar şəhərindən gəlmişdi[5]. Bu faktdan aydın görünür ki, şəhərdəki erməni ailələrin hamısı Dərbənd şəhərinin yerli əhalisi olmayıb buraya sonradan yerləşmişlər.

V. Leqkobıtov 1832-ci ilin kameral təsvirin məlumatlarına əsaslanaraq erməni ailərinin sayını 130, yəhudi ailələrinin miqdarını isə 50-dək yazır[6]. Əgər 1831-ci ildə ermənilər 58 ailə, yəhudilər 108 ailə təşkil edirdilərsə, 1832-ci ildə yəhudi ailələrin sayı 50, erməni ailələrin miqdarı isə 130 olur. Fikrimizcə, Leqkobıtov erməni ailərinin sayını yəhudi ailələrinin miqdarı ilə səhv salmışdır.

Beləliklə, 1831-ci ildə Dərbənd şəhərinin say tərkibi 1795 ailədən[7] ibarət idi. Əgər nəzərə alsaq ki, bu ailələrin 1623-nü tatarlar (Azərbaycan türkü – İ. M. ), 64-nü ermənilər, 108-ni isə yəhudilər təşkil edirdi, onda şəhər əhalisinin 90,4%-ini müsəlmandan, 3,6 %-ini xristianlığın qriqoryan sektasından olan ermənilərdən, 6%-nin isə yəhudi dininə xidmət edənlərdən ibarət olduğunu demək olar[8]. V. Leqkobıtovun məlumatına görə şəhərdəki müsəlmanların 10/1 sünnü, qalanları isə şiə idilər[9].

«Qafqazarxası vilayətlərin icmalı»nda Dərbənd qalası və ətrafında, həmçinin şəhərə aid olan Sabnova kəndində 4741 nəfər Azərbaycan türkü, 142 nəfər erməni və 256 nəfər yəhudinin, Dərbənd əyalətinin 10 kəndindəki 410 evdə isə 1460 nəfər tatar, yəni Azərbaycan türkünün yaşadığı göstərilirdi. Umimilikdə Dərbənd qalası və ətrafında, eləcə də şəhərə aid Sabnova kəndində 5139, əyalətin 10 kəndində 1460 nəfər yaşayırdı[10].

**Cədvəl 2**

**XIX əsrin əvvəllərində Dərbənd əyaləti və Dərbənd şəhərinin etnik tərkibi**

| **Dərbənd xanlığı və əyaləti** | **Tatar** | | **Yəhudi** | | **Erməni** | | **Cəmi** | |
|---|---|---|---|---|---|---|---|---|
| | **ailə** | **nəfər** | **ailə** | **nəfər** | **ailə** | **nəfər** | **ailə** | **nəfər** |
| ***1810-cu ildə*** | | | | | | | | |
| **Dərbənd şəhərində** | 1435 | 3953 k.c. | 59 | 166 k.c. | 28 | 56 k.c. | **1522** | **4175** |
| **%** | 94,3 | 94,7 | 3,9 | 4 | 1,8 | 1,3 | **100** | **100** |
| ***1824-cü ildə*** | | | | | | | | |

[1]Камеральное описание города Дербента, составленное в 1831 году коллежским регистратором Хотяновским // Государственный Исторический Архив Азербайджанской Республики (далее ГИААР), ф. 24, оп. 1, д. 362, лл. 1-156.

[2] Камеральное описание города Дербента, составленное в 1831... л. 201-219.

[3] Камеральное описание города Дербента, составленное в 1831... л. 183 об. - 200 об.

[4] Камеральное описание города Дербента, составленное в 1831... л. 165 об. - 182 об.

[5] Камеральное описание города Дербента, составленное в 1831... л. 157-165.

[6] ОРВЗ, ч. IV , с. 166.

[7] 4747 kişi tatar, 256 kişi yəhudi, 142 kişi yəhudi, 142 kişi, 248 qadın yəhudi, 118 qadın erməni olmaqla 5511 nəfər. Buraya düşməyən tatar qadınları da hesaba alarsaq bu rəqəmin daha çox olduğunu ehtimal etmək olar.

[8] Камеральное описание города Дербента, составленное в 1831... л. 1-219.

[9] ОРВЗ, ч. IV , с. 166.

[10] ОРВЗ, ч. IV, с. 165, 362, таблица S.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Dərbənd şəhərində** | --- | 10377 | --- | 444 | --- | 239 | --- | **11060** |
| **%** | --- | 93,8 | --- | 4 | --- | 2,2 | --- | **100** |
| ***1832-ci ildə*** | | | | | | | | |
| **Bakı qalası və ətrafında, Sabnova kəndində** | --- | 4741 | --- | 256 | -- | 142 | **1795 ev** | **5139** |
| **%** | -- | 92,2 | --- | 5 | --- | 2,8 | **100** | **100** |
| **Bakı əyalətinin 10 kəndində** | ---- | 1460 | ---- | ---- | ---- | ---- | **410 ev** | **1460** |
| **%** | ---- | 100 | ---- | ---- | ---- | ---- | **100** | **100** |
| **Bakı əyaləti üzrə cəmi** | ---- | **6201** | ---- | **256** | ---- | **142** | | **6599** |
| **%** | ---- | **94** | ---- | **3,9** | ---- | **2,1** | **100** | **100** |

**Mənbə**: АРДТА, f.24, siy.1, iş 21, v. 44 арха; Ртищев Ф.Н. Сведения о Дагестане. 1813 // ИГЭД, с. 249; ОРВЗ, ч. IV, с. 165, 362, таблица С.

Cədvəl 2-dən Dərbənd şəhərində 1810-cu ildə tatarların 94,7%, yəhudilərin 4%, ermənilərin 1,3%, 1824-cü ildə tatarların 93,8%, yəhudilərin 4%, ermənilərin 2,2%, 1832-ci ildə Bakı qalası və ətrafında tatarların 92,2%, yəhudilərin 5%, ermənilərin 2,8% təşkil etdikləri məlum olur. Bu da göstərir ki, Dərbənd şəhərində əhalinin böyük əksəriyyəti Azərbaycan türklərindən, cüzi hissəsi isə yəhudi və xristian ermənilərdən ibarət idi.

1832-ci ildə Dərbənd əyalətinin əhalisinin 94%-i tatarlardan, 3,9% yəhudilərdən, 2,1%-i isə ermənilərdən ibarət olmuşdur. Göründüyü kimi Azərbaycan türkləri Dərbənd əhalisinin böyük əksəriyyətini təşkil edirdilər

**Quba xanlığı.** Quba xanlığının əhalisinin sayı muxtəlif dövrlərdə onu idarə edən xanın qudrətindən, apardığı müharibələrdən, qonşu dövlətlərin və xanlıqların Quba xanlığının ərazisinə hücumundan, Fətəli xanın apardığı birləşdirmə siyasətindən və xanların əhali siyasətindən asılı olaraq fərqli olmuşdur. Xanlıqda baş verən siyasi çəkişmələr, qonşu xanların və dövlətlərin hücümü zamanı əhalinin sayı azalmış və ya digər ərazilərə köç etmiş, əksinə xanlıqda vəziyyət sabit olduqda, ərazisi genişləndikdə əhalinin sayı çoxalmış, hətta digər ərazilərdən də buraya gələrək yerləşənlər olmuşdur. Rusiya imperiyasının Quba xanlığını işğalı prosesində musəlman əhali sıxışdırılmış, buraya qismən də olsa xristian əhali yerləşdirilmişdi.

XVIII əsrin birinci yarısından başlayaraq əsrin 70-ci illərinədək Quba xanlığının əhalisinin say tərkibi barəsində məlumatlar demək olar ki, yox dərəcəsindədir. Yalnız bəzi tam olmayan cüzi məlumatlar bizə gəlib çatmışdır. Onu da qeyd etmək lazımdır ki, 1718-ci ildə Quba şəhərində 600 ev qeydə alınmışdı.[1] 1728-1731-ci illərdə Müşkür, Şabran və digər qonşu mahallara xeyli erməni köçkünlər gəlmişdilər.[2] P.Q.Butkova görə XVIII əsrin ortalarında 100 kənddən ibarət olan Quba xanlığında 2600 həyət var idi.[3]

Bəzi hallarda ətraf xanlıqlardan döyüşkən tayfaların Quba xanlığına köçürülməsi xanlığın hərbi gücünün artmasına səbəb olurdu. 1757-ci ildə bir çox şahsevən tayfalarının Muğan düzündən, bəzi ailələrin isə Dərbənd və Şamaxı ətrafından xanlığa köçürülməsini misal göstərmək olar[4]. Digər tərəfdən qaynaqlarda Dərbənd şəhərində Quba xanları tərəfində nəsillərinə bəy titulu verilmiş ailələrin adı da çəkilir. Məsələn, 1831-ci ildə ruslar tərəfindən aparılan Dərbənd şəhərinin kameral təsvirindən məlum olur ki, bəy titulunu təsdiq edən sənədi olanların içərisində Məşədi Əlibəy Əlibəy oğlunun babasına bu titulu Quba xanı Hüseynəli xan, Məhəmməd Rzabəy Məhəmməd Eminbəy

[1] Лопухин А.И. Журнал путешествия через Дагестан, 1718 г.//ИГЭД, М.1958. с.54.
[2] Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. B., 2002, s. 143.
[3] Бутков П.Г. Материалы для новой истории Кавказа 1722-1801, ч. I, Санкт-Петербург, 1869, с.249; Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения с Россией, Б., 1965, с. 185.
[4] Бутков П.Г. Материалы..., с.249; Абдуллаев Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-70 гг. XVIII века, Б., 1958, с.201.

oğlunun babasına, Cilikənd kəndinin bəyi Əli Nağıbəy Həsənbəy oğlunun babasına, Cəfər bəy Xoca Məhəmməd oğlunun babasına, Sultan bəy Zeynalabdin oğlunun babasına, Ağarza bəy İmamverdi bəy oğlunun babasına, Ağarza bəy Məhəmməd Sadıq oğlunun babasına, 3 kəndin məxsus olduğu Əmiralı bəy Məhəmməd Qasım oğlunun babasına, daha 6 kəndin bəyinin babalarına Quba xanı Fətəli xan, Ağabəy Nağıbəy oğlunun atasına bəy adını Quba xanı Şeyxəli xan vermişdir. Həmçinin Qızlar şəhərindən Dərbənddə köçən Varlam Martinoviç Gözəlovların atasına bəy adının Fətəli xan və Əhməd xan tərəfindən verildiyi bəlli olur[1].

S.İbişov 1757-1789-cu illərdə birləşdirilmiş və asılı vəziyyətə salınmış torpaqlarla birlikdə Quba xanlığının ərazisinin 43180 kv verst olduğunu, Lənkəran xanlığı istisna olmaqla əhalisinin sayının isə 250858 nəfər təşkil etdiyini yazır.[2]

1768-ci ildə Şamaxı xanlığını Quba xanlığına birləşdirən Fətəli xan Köhnə Şamaxını özünün yeni iqamətgahına çevirməyi planlaşdırırdı və gələcəkdə burada özünə güclü dayaq yaratmaq məqsədilə Dərbənd, Quba və Salyan əhalisindən min evi köhnə Şamaxıya köçürmüşdü.[3]

Aleksandr Axverdovun hazırladığı “Dağıstanın təsvirinə görə, Quba xanı Fətəli xanın hakimiyyəti illərində Quba şəhəri və 400-ə qədər kiçik kənd xana məxsus idi və Dərbənddən Qubaya qədər xana məxsus torpaqlardan 15 mindən artıq silahlı qüvvə toplamaq mümkün idi. Aleksandr Axverdovun hazırladığı “Dağıstanın təsviri”nə görə, əvvəllər Şeyxəli xanın atası Fətəli xana məxsus Quba şəhəri və 400-dək kənd çox dağıdıldığından Şeyxəli xanın hakimiyyəti illərində (1791-1806) süvari və piyada olaraq yalnız 5 min silahlı qüvvə toplamaq olurdu.[4]

Qafqaz Qrenadyor alayının sekund mayoru F.Simonoviç 1796-cı ildə tərtib etdiyi “Cənubi Dağıstanın təsviri”ndə coğrafi ərazi olaraq Cənubi Dağıstana daxil olan mülklər və bu mülklərin hansı xana məxsus olması haqqında məlumat vermişdir. Bu məlumata görə Dərbənd və Quba mülkləri Quba xanına məxsus olmuşdur. Onun yazdığına görə Quba xanının mülkiyyəti olan Dərbənd mülkü şimaldan Usminin mülkləri ilə, qərbdən Tabasaranla, cənubdan Qazıqumuxlu Xamutayın mülkü olan Kürin əyaləti, Quba mülkü ilə, şərqdən Xəzər dənizi ilə əhatələnmişdi, Dərbənd və Ulus mahallarına bölünürdü. F.Simonoviç bu mülkdə yerləşən Dərbənd şəhərində Əli və Sünnü təriqətinə məxsus 2090 evin, xristianlara aid 90 evin olduğunu yazırdı. 6 kənddən ibarət olan Dərbənd mahalında 265 ev, 15 kənddən ibarət olan Ulus mahalında isə 780 ev vardı[5].

P.Q.Butkov 1796-ci ildə Dərbənd şəhərində 2096 evin müsəlmanlara, 93 evin xristianlara (ümumilikdə 2189 ev)[6] məxsus olduğunu yazırdı. F.Serebrova görə isə şəhərdə 2180 həyət, 21 kənddən ibarət olan Dərbənd əyalətinin mahallarında isə 1050 həyət[7] var idi.

XVIII əsrin 70-ci illərində Quba şəhərinin əhalisinin sayı 7 min nəfər, şəhərdəki evlərin miqdarı isə 2 min təşkil edirdi[8]. F.Simonoviçin məlumatına görə Cənubi Dağıstanın böyük yarısını əhatə edən Quba mülkü Quba xanının mülkiyyəti idi və Qafqaz sıra dağlarından Xəzər dənizinə kimi uzanırdı. Şimaldan Dərbənd mülkü və Kürin əyaləti, qərbdən Axtin mülkü və Qafqaz dağları, cənubdan Şamaxı və Bakı, şərqdən Xəzər dənizi ilə əhatələnirdi[9]. Quba əyalətində yaşayan xalqlar

---

[1]Камеральное описание города Дербента, составленное в 1831... л. 201-211 об.; Мамедова И.М. «Камеральное описание города Дербента» как один из источников в изучении населения города // «Актуальные проблемы науки и техники». Сборник научных статей II международной научно-практической конференции 15 июня 2010 г. Часть I, г. Кизляр, РД, с. 96-102.

[2] İbişov S. Quba xanlığının əhalisi, B., 2004, s. 50.

[3] Абдуллаев Г.Б. Из истории Северо-Восточного... с. 16.

[4] Ахвердов А. И. Описание Дагестана. 1804// РГАДА (Российский Государственный Архив Древних Актов). ф. Ермоловых, д. 319, лл.1-22; Memmedova İ. Güney Kafkasya’nın Türk-Müslüman Ahalisi XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılın Başlarında (Rusya Arşiv Belgelerine Göre). // TURKUAZ Uluslararası Türk Dünyası Bilimsel Araştırmalar Dergisi, 1 (1). Ankara, Eğitim ve Bilim Politikaları Araştırma Derneği, 2020, s. 16.

[5] Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// ИГЭД, М., 1958, с.141-144; Российский Государственный Военно-Исторический Архив (далее РГВИА), ф. 846, оп. 16, д. 18474, ч.I, л. 18 об.- 19.

[6] Бутков П.Г. Выдержки из проекта отчета о персидской экспедиции в виде писем. 1796 г.// ИГЭД, М., 1958, с. 202.

[7] Серебров А.Г. Историко-этнографическое описание Дагестана. 1796 г. // ИГЭД, М., 1958, с. 176.

[8] Архив Внешней Политики Российской Империи (далее АВПРИ), ф. 77 (Сношение России с Персией), оп. 7, д. 158, л.11.

[9] Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// ИГЭД, с. 138-156.

və onun mahalları haqqında məlumat verən mənbənin məlumatına əsasən Samur, Qusar və Qudyalçayı boyunda yerləşən kəndlərin əhalisi olan qubalılar yerli əhalidirlər, türk adlanan dildə danışırlar, müsəlmandırlar və sünnü məzhəbindəndirlər. Müşkür, Barmaq və Sədan mahallarında yaşayan əhali isə mənbənin məlumatına görə şiə məzhəbindən idi və tat adlanan dildə danışırdılar. Buduq və Xınalıq mahalları sünnü məzhəbindən idi və ləzgi dilinə yaxın bir dildə danışırdılar. Şabran mahalının əhalisi də türk dilində danışan şiə məzhəbindən olan müsəlmanlar idilər. Quba xanı Hüseynəli xanın və Fətəli xanın hakimiyyət illərində bu mahala Muğan düzündən, İranın digər yerlərindən və qonşu mülklərdən əhali köçürülmüşdü[1]. Mənbənin məlumatından göründüyü kimi Quba xanlığında Azərbaycan türkləri üstünlük təşkil etmişlər.

Quba xanlığının Rustov mahalının Kilvar, Müşkür mahalının Birinci və İkinci Baraxum, Qaraçalı, Böyük və Balaca Xaçmaz, Qaraqurtlu kəndlərində ermənilər yaşayırdı. 22 evi olan Kilvar kəndində 2 keşiş, 1 kilsə, 15 həyətdən ibarət olan Birinci Baraxum kəndində 1kilsə və 1 keşiş, Qaraçalıda 1 kilsə, 4 keşiş, Qaraqurtluda 1 kilsə vardı. Quba xanlığının bir neçə kəndində yaşayan azsaylı ermənilərin bir qismi qriqoryan irandilli tatlar, bir qismi xeyli dərəcədə erməniləşmiş albanlar, bir qismi də gəlmə ermənilər idi. Qudyalçayın əks sahilində yaşayan Külqat qəsəbəsində dağ yəhudiləri yaşayırdılar. Onların 4 ravinləri və 4 sinaqoqları var idi[2]. P.Q.Butkov 1796-cı ildə burada 200 yəhudi evinin mövcud olduğunu xəbər verirdi[3].

1796-cı ildə Quba əyaləti 8 mahala bölünmüşdü: Quba, Rustov, Müşkür, Şabran, Sədan, Barmaq, Xınalıq, Buduq. Mənbənin məlumatına görə Quba əyalətində cəmi 1 şəhər və 245 kənd, ümumilikdə 6364 ev var idi. Mahalı idarə edənlər Quba naibinə tabe idilər[4]. F.Simonoviçin yazdığına görə 99 kənddən ibarət Quba mahalında 2200, 31 kənddən ibarət Müşkür mahalında 470, 67 kənddən ibarət Şabran mahalında 1190, 29 kənddən ibarət Rustov mahalında 675, 20 kənddən ibarət Sədan mahalında 340, 24 kənddən ibarət Barmaq mahalında 600, 18 kənddən ibarət Xınalıq və Buduq mahallarında 950 ev var idi. Xanın iqamətgahının yerləşdiyi Quba şəhərində evlərin sayı 600 evə yaxın (Rusiya Dövlət hərb Tarix arxivinin sənədində 400 evə yaxın yazılır) idi[5]. P.Q.Butkov 1796-cı ildə Quba əyalətində 23147 nəfərin yaşadığını yazırdı.[6]

**Cədvəl 3**

**XVIII əsrdə Quba xanlığının etnik tərkibi**

| Quba xanlığı | Kənd | Türk, tat, buduq və xınalıqlara məxsus həyətlərin (ev) sayı | Ermənilərə məxsus həyətlərin (ev) sayı | Yəhudilərə məxsus həyətlərin (ev) sayı | Quba xanlığı üzrə həyətlərin (ev) sayı | Nəfər |
|---|---|---|---|---|---|---|
| ***P.Butkova görə XVIII əsrin ortalarında*** | | | | | | |
| Quba xanlığı | 100 | ------ | ------ | ------ | 2600 | 13000[7] |
| ***F. Simonoviçə görə XVIII əsrin 70-ci illərində*** | | | | | | |
| *Quba şəhəri* | ------ | ------ | ------ | ------ | *2000 ev* | *7000* |
| ***F.Simonoviçə görə 1796-cı ildə*** | | | | | | |
| *Quba şəhəri* | ------ | ------ | ------ | ------ | *600*[8] | ***3000***[9] |
| Quba mahalı | 99 | ------ | ------ | ------ | 2200 ev | **11000** |
| Müşkür mahalı | 31 | ------ | ------ | ------ | 470 ev | **2350** |
| Şabran mahalı | 67 | ------ | ------ | ------ | 1190 ev | **5950** |

[1] АВПРИ, ф. 77, оп. 7, д. 159, лл. 35 – 35 об.; Mustafazadə T.T. Quba əyalətinin kameral təsviri, B., 2008, s. 7-8.
[2] АВПРИ, ф. 77, оп. 7, д. 159, лл. 35 об.; Mustafazadə T.T. Quba xanlığı, B., 2005, s. 19.
[3] Бутков П.Г. Выдержки из проекта.... 1796 г.// ИГЭД, с. 205.
[4] О внутреннем устроении Кубинской провинции//АВПРИ, СРП, ф. 77. Оп. 7, д. 159, л. 36-47.
[5] Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// ИГЭД, с. 144-149; РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 19 об.- 24.
[6] Бутков П.Г. Выдержки из проекта...1796 г.// ИГЭД, с. 204.
[7] Xanlıq əhalisinin sayı hər evdə minimum 5 nəfər hesabı ilə həyətlərin sayına vurmaqla hesablanmışdır.
[8] Arxiv sənədinə görə 400 [РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 19 об.- 24].
[9] F. Simonoviçə görə verdiyimiz rəqəmlər evlərin sayını 5 vurmaqla hesablanmışdır.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Rüstü mahalı | 29 | ------ | ------ | ------ | 675 ev | **3375** |
| Sədan mahalı | 20 | ------ | ------ | ------ | 340 ev | **1700** |
| Bərmək mahalı | 24 | ------ | ------ | ------ | 600 ev | **3000** |
| Xınalıq və Buduq mahalları | 18 | ------ | ------ | ------ | 950 ev | **4750** |
| **Mahallar üzrə cəmi** | **288** | ------ | ------ | ------ | **6425** | **32125** |
| Salyan[1] | ------ | 220[2] ev | ------ | ------ | 220 ev | **1100** |
| Salyanın kəndləri | 26 | 1100[3] | ------ | ------ | 1100 ev | **5500** |
| **Salyan üzrə** | **1 şəhər+ 26 kənd** | **1320** | | | **1320** | **6600** |
| ***P. Butkova görə 1796-cı ildə*** | | | | | | |
| Dərbənd şəhəri | ------ | 2096 ev[4] | 93 ev | ------ | 2189 ev | ------ |
| % | ------ | 95,8% | 4,2 | ------ | 100 | ------ |
| Dərbəndə məxsus kəndlər | 15[5] | ------ | ------ | ------ | ------ | ------ |
| *Dərbəndə məxsus kəndlərlə birlikdə* | ------ | ------ | ------ | ------ | ------ | **10000** |
| **Quba şəhəri ilə birlikdə Quba xanlığının kəndləri** | 1 şəhər+ 245 kənd | **5984[6]** | **180** | **200** | **6364** | **23.147** |
| **%** | **----** | **94,03** | **2,83** | **3,14** | **100** | **----** |

**Mənbə:** О внутреннем устроении Кубинской провинции//АВПРИ, СРП, ф. 77. Оп. 7, д. 159, л. 36-47; Бутков П.Г. Выдержки из проекта отчета о Персидской экспедиции в виде писем, 1796 г., Санкт-Петербург, филиал архива Российской Академии Наук, ф. 99, оп. 2, л. 10-108; Бутков П.Г. Выдержки из проекта отчета о Персидской экспедиции в виде писем, 1796 г.// ИГЭД, с. 204-205; Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// ИГЭД, с. 144-149; РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 19 об.- 24; Бутков П.Г. Материалы для новой истории Кавказа 1722-1801, ч. I, Санкт-Петербург, 1869, с.249; Mustafazadə T. Quba xanlığı, Bakı, Elm, 2005, s. 367-368; İbişov S. A.g.ə, s. 97.

Cədvəl 3-dən göründüyü kimi 1796-cı ildə Quba şəhəri ilə birlikdə Quba xanlığında Azərbaycan türkləri, tat, buduq və xınalıqlara məxsus həyətlər 94,03%, ermənilərə məxsus həyətlər 2,83%, yəhudilərə məxsus həyətlər isə 3,14% təşkil edirdi.

Yuxarıda müxtəlif mənbələr üzrə verdiyimiz məlumatlar Quba xanlığının Samur, Qusar və Qudyal çayları boyunda yerləşən kəndlərinin, Şabran mahalının əhalisinin türk, Müşkür, Bərmək, Sədan mahallarının əhalisinin əsasən tat, Rustov (Rüstü) mahalının Kilvar, Müşkür mahalının Birinci və İkinci Baraxum, Qaraçalı, Böyük və Balaca Xaçmaz, Qaraqurtlu kəndlərinin əhalisinin erməni, Müşkür mahalının Külqat kəndinin əhalisinin isə yəhudi olduğunu deməyə əsas verir.

XIX əsrin əvvəllərində Quba əyalətində ermənilər ancaq Kilvar və Xaçmaz kəndlərində

[1] Arxiv sənədində 1796-cı ildə Salyanın Quba xanlığına tabe olduğu bildirilir.
[2] Hamısı türklərə məxsus idi.
[3] Türklərə məxsus idi.
[3] Əhalisini türklər təşkil edirdi.
[4] Hamısı türklərdən, yəni Azərbaycan türklərindən ibarət idi.
[5] Dərbəndə məxsus kəndlərdə ermənilər yaşamadığı üçün onların hamısının türklərdən ibarət olduğu qənaətinə gəlmək olar.
[6] Azərbaycan türkləri, tat, buduq və xınalıqlara məxsus həyətlərin sayı Quba xanlığında 1796-cı ildə Butkov tərəfindən qeydə alınan cəmi 6364 həyətdən erməni və yəhudilərə məxsus həyətlərin sayını çıxmaqla tərəfimizdən hesablanmışdır.

yaşayırdılar və 53 evdən ibarət idilər.[1] Digər məlumata görə Quba əyalətində müsəlman ruhanilər 500 ailə, erməni ruhanilər 75 ailə və seyidlər 40 ailədən ibarət idilər.[2]

1810-cu ildə Quba əyalətində ümumilikdə 5698 həyət vardı.[3] 310 həyət Quba şəhərində, 124 həyət Quba ətrafındakı yəhudi kəndində, 573 həyət Bərmək mahalında, 714 həyət Şabran mahalında, 640 həyət Şişpara mahalında, 292 həyət Müşkür mahalında, 630 həyət Tip mahalında, 640 həyət Xınalıq mahalında, 522 Buduq mahalında, 638 həyət Yuxarıbaş mahalında, 484 həyət Sırt mahalında, 161 həyət Anaqdərə mahalında qeydə alınmışdı.[4]

Digər mənbəyə görə 1810-cu ildə Quba xanlığında 230 ailə müsəlman din xadimi yaşayırdi ki, bunların da 63 ailəsini axundlar, 65 ailəsini seyidlər, 65 ailəsini mollalar təşkil edirdi. Quba əyalətindəki Kilvar kəndində cəmi 2 erməni popu yaşayırdı. Daha sonrakı dövrdə axund və molların sayı 279, seyidlərin sayı isə 210 olmuşdur[5]. F.N.Rtişşevin məlumatına görə Quba qalasında 349 həyət, 1044 kişi vardı.[6]

**Cədvəl 4**

**F.N.Rtişşevin məlumatına görə Quba qalasında həyət və kişi əhalinin sayı**

| Quba qalasının əhalisi | Həyətlərin sayı | Kişilərin sayı (nəfərlə) |
|---|---|---|
| Bəylər | 29 (8,3 %) | 87 (8,3 %) |
| Axundlar | 7 (2 %) | 29 (2,8 %) |
| Mollalar | 6 (1,7 %) | 21 (2 %) |
| Seyidlər | 19 (5,4 %) | 72 (6,9 %) |
| Yüzbaşılar | 3 (0,9 %) | 13 (1,2 %) |
| Sakinlər | 285 (81,7 %) | 823 (78,8 %) |
| Cəmi | 349 | 1044 |

**Mənbə:** РГВИА, ф. 846, оп. 16, д. 18479, л. 9

1826-cı ildə Quba əyalətində 52 min hər iki cinsdən olan müsəlman yaşayırdı[7]. Burada ermənilər qeydə alınmamışdı.

1831-ci il “Quba əyalətinin kameral təsviri”nə görə, Quba şəhərində 601 ailə, kişi cinsindən 1801 nəfər qeydə alınmışdı; şəhər kənarı yəhudi qəsəbəsində 432 ailə, kişi cinsindən 1432 nəfər, Müşkür mahalında 681 ailə, kişi cinsindən 1997 nəfər, Tip mahalında 1588 ailə, kişi cinsindən 5347 nəfər, cəmi 3303 ailə, kişi cinsindən 10577 nəfər qeydə alınmışdı.[8]

Xınalıq mahalında 1238 ailə, kişi cinsindən 4613 nəfər, Anaqdərədə 382 ailə, kişi cinsindən 1257, Yuxarıbaşda 1025 ailə, kişi cinsindən 3600 nəfər, Sırt mahalında 1026 ailə, kişi cinsindən 3859 nəfər olmaqla cəmi 3595 ailə, kişi cinsindən 13335 nəfər vardı.[9] Görkəmli tarixçi Tofiq Mustafazadə Kilvarda qeydə alınan kişi cinsindən 97 nəfər vergi mükəlləfiyyətli erməninin əslində erməni deyil, qriqoryan tatları olduğunu bildirir.[10]

F.A.Şnitnikov “Quba əyalətinin təsviri”ndə 1832-ci ildə Quba əyalətinin əhalisinin böyük əksəriyyətinin sünnü məzhəbli müsəlmanlardan, az sayda erməni və yəhudilərdən ibarət olduğunu yazırdı. Onun yazdığına görə Quba ətrafındakı yəhudi qəsəbəsində 1377 kişi, 1294 qadın olmaqla 2671 nəfər yəhudi yaşayırdı.[11]

---

[1] ОРВЗ, ч. IV, с. 119.
[2] İbişov S. Quba xanlığının əhalisi, B., 2004, 127.
[3] АКАК, т. IV, Тифлис, 1870, док. 1006, 1007, с. 648-654.
[4] АКАК, т. IV, Тифлис, 1870, д. 1007, с. 649-650.
[5] ARDTA, f. 24, siy. 1, iş 328.
[6] РГВИА, ф. 846, оп. 16, д. 18479, л. 9.
[7] Кавказский сборник. Т. 22, Тифлис, 1901, с. 60.
[8] Quba əyalətinin kameral təsviri (1831-ci ildə kollec reqistratoru Xotyanovski tərəfindən tərtib edilmişdir), tərcümə, giriş, qeydlər və yekun cədvəllər T. Mustafazadənindir, Bakı, Sabah, 2008, s. 15-17.
[9] Quba əyalətinin kameral təsviri.., s. 518-519.
[10] Quba əyalətinin kameral təsviri, s. 366-371.
[11] Шнитников Ф.А. Описание Кубинской провинции.1832 г.// РГВИА, ф ВУА, д. 301, л. 513; Шнитников Ф.А. Описание Кубинской провинции.1832 г. //ИГЭД, с. 329-330; Mustafazadə T. Quba xanlığı, s. 466.

"Qafqazarxası vilayətlərin icmalı"na görə 1832-ci ildə Quba şəhərində 645 evdə 1984 nəfər tatar (Azərbaycan türkü – İ.M.), Quba əyalətinin 292 kəndində 12309 evdə 42456 nəfər tatar, 204 nəfər erməni, 1450 nəfər yəhudi yaşayırdı.[1] Deməli, 1832-ci ildə Quba əyalətində Quba şəhəri də daxil olmaqla ümumilikdə 46094 nəfər yaşayırdı. Maraqlıdır ki, Şnitnikov 1832-ci ildə şəhərətrafı yəhudi qəsəbəsində 2671 nəfər yəhudinin yaşadığını bildirir, "Qafqazarxası vilayətlərin icmalı"nda isə eyni ildə Quba əyalətində 1450 nəfər yəhudi qeydə alınmışdır, yəni eyni il üçün fərqli rəqəmlərdir və arasındakı fərq də kifayət qədər çoxdur. Ehtimal ki, ikinci mənbə şəhərətrafı qəsəbəni hesaba almadan ümimilikdə əyalətdəki yəhudilərin sayını vermiş, məhz buna görə də göstərilən rəqəmlərdə fərq ortaya çıxmışdır.

**Cədvəl 5**

**1832-ci ildə Quba əyalətinin etnik tərkibi (nəfərlə)**

| **Quba şəhəri və əyaləti** | **evlərin sayı** | **tatar** | **%** | **erməni** | **%** | **yəhudi** | **%** | **cəmi** |
|---|---|---|---|---|---|---|---|---|
| Quba şəhəri | 645 | 1984 | 100 | ---- | ---- | ---- | --- | 1984 |
| Quba əyalətinin 292 kəndində | 12309 | 42456 | 96,2 | 204 | 0,5 | 1450 | 3,3 | 44110 |
| **Quba əyaləti üzrə cəmi** | | **44440** | **96,4** | **204** | **0,4** | **1450** | **3,2** | **46094** |

**Mənbə:** ОРВЗ, ч. IV, с. 362, таблица С

Cədvəl 5-dan 1832-ci ildə Quba şəhərində yalnız tatarların yaşadığı məlum olur. Quba əyalətinin 292 kəndinin əhalisinin 96,2%-ni tatarlar, 0,5%-ni ermənilər, 3,3%-ni yəhudilər təşkil edirdilər. Quba şəhəri də daxil olmaqla Quba əyaləti əhalisinin 96,4%-i tatarlardan, 0,4%-i ermənilərdən, 3,2%-i isə yəhudilərdən ibarət olmuşdur. Göründüyü kimi Quba əyalətində Azərbaycan türkləri 96,4%-lə böyük əksəriyyət təşkil edirdilər.

Beləliklə, mənbələrin məlumatı Quba xanlığının əhalisinin etnik tərkibinin müxtəlif olduğunu göstərir. Quba xanlığının əhalisinin böyük əksəriyyətini buranın köklü sakinləri olan Azərbaycan türkləri təşkil etmiş, eyni zamanda burada tat, buduq, xınalıq, yəhudi və ermənilər də yaşamışlar. Nəzərə alsaq ki, Quba xanlığının yalnız bir neçə kəndində qeydə alınan azsaylı ermənilər qriqoryan irandilli tatlarlardan, xeyli dərəcədə erməniləşmiş albanlar və gəlmə ermənilərdən ibarət olmuşdur, o zaman ermənilərin Quba xanlığında cüzi olduğu qənaətinə gəlinir.

**Bakı xanlığı.** Bakı xanlığı şimaldan, şərqdən və cənubdan Xəzər dənizi, şimal-qərbdən Quba xanlığı, cənub-qərbdən Şamaxı xanlığı ilə əhatə olunmuşdu. Azərbaycanın Xəzəryanı xanlıqlarından olan Bakı xanlığında 1796-cı ildə Bakı şəhəri də daxil olmaqla 1820 ev qeydə alınmışdı.[2]

Aleksandr Axverdovun yazdığına görə, Bakı şəhərinin Quba ilə sərhəddini Suqayıtdı (indiki Sumqayıt-İ.M.) çayı təşkil edirdi. Xəzər dənizinin sahilində yerləşən Bakı şəhəri 3 tərəfdən üçqat qala divarları ilə, dəniz tərəfdən isə bir qat divarlar ilə əhatələnmişdi. Bakı şəhərinin hakimi Hüseynqulu xan idi və burada 500-dən çox həyət vardı. Şəhərin əhalisi 1500-dək silahlı qüvvə təşkil edə bilirdi və şəhərin ətrafında yerləşən 25-dək kiçik kəndlərdən ən çox 2 min silahlı qüvvə toplamaq mümkündü.[3]

XVIII əsrin 80-ci illərində Bakı şəhərində cəmi bir neçə xristian tacir yaşayırdı.[4]

Bakı xanlığında əhalinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi, burada tatlar da yaşayırdı, onlar Sasani imperiyası dövründə İrandan şimal sərhədlərini qorumaq məqsədilə

[1] ОРВЗ, ч. IV, с. 362, таблица С; Мамедова И. Влияние переселенческой политики..., с. 35.
[2] ARDTA, f.24, siy. 1., 1810-1813, iş 21, s. 109-116.
[3]Ахвердов А. И. Описание Дагестана. 1804// РГАДА, ф. Ермоловых, д. 319, лл.1-22; Memmedova İ. Güney Kafkasya'nın Türk-Müslüman Ahalisi XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılın Başlarında (Rusya Arşiv Belgelerine Göre), s. 16.
[4] Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793, s. 11.

köçürülmüşdülər. Eyni zamanda xanlıqda az sayda erməni və yəhudi də vardı.[1]

Arxiv sənədinə görə, 1796-cı ildə “Bakı şəhərində 580 evədək iranlı (Azərbaycan türkü – İ.M.), 40 evə yaxın erməni vardı, Maştağa adlanan yerdə iranlılar 350 evədək, 34 kənddə isə 850 evdək təşkil edirdilər”.[2]

**Cədvəl 6**

**1796-cı ildə Bakı xanlığının etnik tərkibi**

| **Bakı xanlığı** | **Türk (ev)** | **%** | **Erməni (ev)** | **%** | **Cəmi (ev)** | **Cəmi (nəfər)** |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 580 | | 40 | | 620 | --- |
| | | | | | | |
| Maştağa | 350 | 100 | --- | --- | 350 | --- |
| Bakı xanlığının 34 kəndində | 850 | 100 | --- | --- | 850 | --- |
| **Bakı xanlığında cəmi** | **1780** | **97,8** | **40** | **2,2** | **1.820** | **5.460** |

**Mənbə:** РГВИА, ф.846, оп.16, д.18474. ч.I-II.

Cədvəl 14-dan Bakı xanlığında türklərin 97,8%, ermənilərin isə cəmi 2,2% təşkil etdiyi məlum olur. Bu da Bakı xanlığında Azərbaycan türklərinin böyük əksəriyyət təşkil etdiyinin göstəricisidir.

Onu da qeyd etmək lazımdır ki, ermənilər Bakı xanlığının yerli əhalisi olmayıb bura sonradan yerləşdirilmişdilər. I Pyotrun erməniləri Xəzər sahili vilayətlərə, xüsusilə də Dərbənd, Bakı, Gilan və Mazandarana cəlb etmək və yerləşdirmək haqqındakı fərmanından sonra ermənilər bu ərazilərə köçüb yaşamağa başlamışdılar.

Digər arxiv sənədinə görə Bakı qalası və əyaləti üzrə xəzinə mülklərində yaşayan vergi mükəlləfiyyətli əhali bu şəkildə olmuşdur: Bakı qalası və Bayır şəhərdə 1892 nəfər, Hökməli kəndində 145, Masazır kəndində 73, Corat kəndində 88, Goradil kəndində 25, Kürdəxanı kəndində 86, Pirşağı kəndində 98, Buzovna kəndində 263, Şağan kəndində 51, Mərdəkan kəndində 94, Zığ kəndində 71, Əmircan kəndində 216, Romanı kəndində 80, Balaxanı kəndində 286, Küləy Mahmud kəndində 71, Hacı Zurab bəyə məxsus 5 kənddə - Güzdəkdə 70, Qobuda 135, Xırdalanda 92, Hacı Həsəndə 84, Biləcəridə 112, Məhəmməd bəyə məxsus Saray kəndində 183, Hacı Nurməhəmməd bəyə məxsus Novxanı kəndində 202, Əsgərəli bəyə məxsus Fatmayı kəndində 177, Qasım bəyə məxsus Binəqədi kəndində 138, Manaf bəyə məxsus 2 kənddə - Digahda 91, Məhəmmədidə 68, Kəlbəli bəyə məxsus Maştağa kəndində 582, Hümbət bəyə məxsus Bilgəh kəndində 93, Kərim bəyə məxsus Nardaran kəndində 139, Həşim bəyə məxsus iki kənddə - Zirədə 94, Suraxanıda 90, Məmməd Şəfi bəy tərəfindən idarə edilən Qala kəndində 332, Allahverdi bəyə məxsus Türkan kəndində 32, Məhəmmədqulu bəyə məxsus Bülbül kəndində 33, Qasım bəyə məxsus Hövsan kəndində 64, Aşur bəyə məxsus iki kənddə - Zabratda 38, Sabuncuda 50, Məmmədyar bəy tərəfindən idarə edilən Keşlə kəndində 56 nəfər vergi mükəlləfiyyətli əhali vardı. Deməli, Bakı qalası və Bayır şəhərdə 1892 nəfər və Bakı əyalətinin 37 kəndində 4602 nəfər olmaqla cəmi 6494 nəfər vergiödəyici yaşayırdı.[3]

XVIII əsrin sonlarında Bakı şəhərində ermənilər 40 evdən ibarət idilərsə, XIX əsrin əvvəllə-rində onlarıni sayı 24 evədək azalır. Bakı kəndlərində xristian erməni əhali ümumiyyətlə yaşamırdı.

1810-cü il general-leytenant Repinin məlumatına görə Bakıda evlərin sayı 931, kəndlərdə isə 2314 idi. Bakı xanlığında, 2235 nəfəri Bakı şəhərində, 5387 nəfəri kəndlərdə olmaqla cəmi 7622

[1] Искендерова М. Бакинское ханство. Баку, Чашыоглу, 1999, с. 20.
[2] РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 42.
[3] Описание без карты провинциям в Дагестане по Каспийскому морю лежащем: Дербентской, Бакинской, Кубинской и Куринской // РГВИА, ф.846, оп.16, д. 18479, л.5-6 об.

kişi qeydə alınmışdı. Bakı xanlığında qadın və kişi cinsindən olmaqla 15244 nəfər yaşayırdı. Bakı qalasında 2154-ü kişi olmaqla 897 ailə Azərbaycan türkü, 55-i kişi olmaqla 24 erməni ailəsi və 26-sı kişi olmaqla 10 yəhudi ailəsi yaşayırdı.[1]

1816-cı ildə isə Bakı xanlığında evlərin sayı 3862-ə (20 min nəfərə) çatırdı.[2]

1826-cı ildə Bakıda olan səyyah Zeynalabdin Şirvani şəhərdə 3 minə yaxın evin olduğunu bildirirdi[3].

Bakı xanlığının ərazisində 1810-cu ildə qalada 897 ailə Azərbaycan türkü, 24 erməni ailəsi və 10 yəhudi ailəsi yaşayırdısa[4], 1832-ci ildə Bakı qəzasında 3481 kişi Azərbaycan türkü, 172 kişi erməni yaşayırdı[5]. Həmin ildə aparılmış kameral təsvirə görə Bakı əyalətində ermənilər yalnız Bakı şəhərində yaşayırdılar və onların sayı 70 ailəyədək idi[6]. Mənbələrdən göründüyü kimi ermənilərin sayı 55 nəfər kişidən 172 nəfər kişiyə, 24 ailədən 70 ailəyədək qalxmışdı.

Bakı qalası və ətrafında qeydə alınan 1358 evdə 3709 nəfər Azərbaycan türkü, 184 nəfər erməni, Bakı əyalətinin 40 kəndində isə 11535 Azərbaycan türkü yaşayırdı.[7]

**Cədvəl 7**

**Bakı xanlığı və əyaləti üzrə əhalinin etnik tərkibi**

| Bakı xanlığı və əyaləti | Tatar | | Erməni | | Yəhudi | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|
| | ev | nəfər k.c. | ev | nəfər k.c. | ev | nəfər k.c. | ev | nəfər k.c. |
| **1810-cü il** | | | | | | | | |
| Bakı qalasında | 897 | 2154 | 24 | 55 | 10 | 26 | 931 | 2235 |
| % | 96,3 | 96,4 | 2,6 | 2,5 | 1,1 | 1,1 | 100 | 100 |
| Bakı xanlığının kəndlərində | 2314 | 5387 | ---- | ---- | ---- | ---- | 2314 | 5387 |
| % | 100 | 100 | ---- | ---- | ---- | ---- | 100 | 100 |
| **Bakı xanlığı üzrə cəmi** | **3245** | **7541** | **24** | **55** | **10** | **26** | **3279** | **7622** |
| **%** | **99** | **99** | **0,7** | **0,7** | **0,3** | **0,3** | **100** | **100** |
| **1832-ci ildə** | | | | | | | | |
| Bakı qalası və ətrafında | ---- | 3709 | ---- | 184 | ---- | ---- | 1358 | 3893 |
| % | ---- | 95,3 | | 4,7 | ---- | ---- | 100 | 100 |
| Bakı əyalətinin 40 kəndində | ---- | 11535 | ---- | ---- | ---- | ---- | 3454 | 11535 |
| % | ---- | 100 | ---- | ---- | ---- | ---- | 100 | 100 |
| **Bakı əyaləti üzrə cəmi** | ---- | **15244** | ---- | **184** | ----- | ---- | **3455** | **15428** |
| **%** | ---- | **98,8** | ---- | **1,2** | ---- | ---- | **100** | **100** |

**Mənbə:** ARDTA, f.24, siy. 1, 1810-1813, iş.21, v. 109-116; ОРВЗ, ч. IV, с. 362, таблица С; Məmmədova İ. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda əhalinin etnik tərkibi, "İdeal-Print" MMC, 2021, Bakı, s. 198.

---

[1] ARDTA, f.24, siy. 1., 1810-1813-cü illər, iş 21, v. 109-116; Искендерова М. Бакинское ханство. Баку, 1999, с. 19; Memmedova İ. Güney Kafkasya'nın Türk-Müslüman Ahalisi XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılın Başlarında (Rusya Arşiv Belgelerine Göre)..., s. 16.

[2] ARDTA, f.24, siy. 1, 1816-cı il, iş 51, v. 5-72 arxa.; İsgəndərova M., a.g.ə., s. 19.

[3] Babaxanov R. Seyidov F. Hacı Zeynalabdin Şirvani, s. 22.

[4] ARDTA, f. 24, siy. 1, iş 21, v. 109.

[5] ARDTA, f. 24, siy. 1, iş 370, v. 1.

[6] ОРВЗ, ч. IV, с. 43.

[7] ОРВЗ, ч. IV, с 362, таблица S; Мамедова И.М. Влияние переселенческой.... с. 35.

Cədvəl 7-dən 1810-cu ildə Bakı qalasında tatarların 96,4%, ermənilərin 2,5%, yəhudilərin 1,1%, Bakı xanlığının kəndlərində tatarlar 100%, ümumilikdə Bakı xanlığı üzrə isə tatarların 99%, ermənilərin 0,7%, yəhudilərin isə 0,3% təşkil etdiyini izləmək mümkündür.

1832-ci ildə isə Bakı qalası və ətrafında tatarlar 95,3%, ermənilər 4,7%, Bakı əyalətinin 40 kəndində tatarlar 100%, ümumilikdə Bakı əyaləti üzrə isə tatarlar 98,8%, ermənilər isə 1,2% təşkil etmişdir.

Cədvəl 7-dən göründüyü kimi, Bakı əyaləti üzrə ermənilər 1832-ci ildə 1810-cu ilə nisbətən 0,7%-dən 1,2%-ə qalxmışdılar. Bakı qalası və ətrafı üzrə 1810-cu ildə 2,5% təşkil edən ermənilər 1832-ci ildə 4,7%-ə yüksəlmişdilər. Buna baxmayaraq ermənilərin sayı cüzi idi.

1810-ci ildə Bakı qalası və ətrafında qeydə alınan 26 nəfər yəhudi artıq 1832-ci ildə qeydə alınmamışdır. Bakı kəndlərində yalnız tatarlar yaşayırdılar.

Beləliklə, mənbələrin məlumatlarına əsaslanaraq XIX əsrin əvvəllərində Bakı xanlığında Azərbaycan türklərinin şəksiz üstünlüyə malik olduğunu demək mümkündür

Onu da qeyd etmək lazımdır ki, ermənilər Bakı xanlığının yerli əhalisi olmayıb bura sonradan yerləşdirilmişdilər. I Pyotrun erməniləri Xəzər sahili vilayətlərə, xüsusilə də Dərbənd, Bakı, Gilan və Mazandarana cəlb etmək və yerləşdirmək haqqındakı fərmanından sonra ermənilər bu ərazilərə köçüb yaşamağa başlamışdılar.

**Şamaxı xanlığı**. 1768-ci ildə Şamaxı xanlığını Quba xanlığına birləşdirən Fətəli xan Köhnə Şamaxını özünün yeni iqamətgahına çevirməyi planlaşdırırdı və gələcəkdə burada özünə güclü dayaq yaratmaq məqsədilə Dərbənd, Quba və Salyan əhalisindən 1000 evi köhnə Şamaxıya köçürmüşdü[1].

Axverdov Şamaxı xanlığının Bakıdan 150 verst məsafədə yerləşdiyini və şəhərin Mustafa xan tərəfindən idarə edildiyini yazırdı. Onun yazdığına görə, istər Könhə, istər də Yeni Şamaxı diqqətçəkici deyildi, xanlığın əhalisinin əksəriyyətini tərəkəmələr (elatlar) təşkil edirdi və bunların içində ən döyüşkən sayılan Xançobanı tayfası 500-ə qədər silahlı qüvvə verə bilərdi. Şamaxı xanı ehtiyac olduğunda 4 minə yaxın silahlı qüvvə toplaya bilirdi. Bütün tərəkəmələr və kənddə yaşayanlar əkinçilik və barama becərməklə məşğul idilər.[2]

“Dağıstan İranının şimal və cənub hissəsinin qısa tarixi təsviri”ndə Şamaxı xanlığının əhalisinin çoxunun Əli təriqətinə, lakin burada tərəkəmə həyat tərzi sürən Xançobanı elinin sünnü məzhəbinə aid olduğu bildirilir. Bu təsvirə görə az sayda əhali digər əyalət ləhçələrindən fərqli Türkistan dilində (türk dilində) danışırdı, bəziləri farsca bilsələr də, dilə dərindən hakim deyildilər, əhalisi çox çalışqan, cəsur idi və döyüşçü ruhuna malikdi, savaşmağa çox meyillidir.[3]

Məhəmməd Həsən xanın hakimiyyəti dövründə Şamaxı şəhərində 9 məhəllə və min ev var idi[4].

Mustafa xanın hakimiyyəti dövründə isə Fitdağı qalasında 10 min nəfərdən çox əhali yaşayırdı[5].

S. Burnaşev XVIII əsrin 80-ci illərində Şamaxı xanlığında 2 min həyət xristianın yaşadığını yazırdı[6]. Fikrimizcə, Şamaxı xanlığında bu qədər xristian yaşaya bilməzdi. Çünki Serebrov Şamaxı xanlığında cəmi 230 xristian ailəsi qeydə almışdı. 1795-ci ildə Şamaxı şəhərində 4-5 min nəfər yaşayırdı[7]. Serebrova görə Şamaxı xanlığının 6 erməni kəndində 230 erməni ailəsi yaşayırdı[8].

Arxiv sənədinə görə 1796-cı ildə Şamaxı şəhərində iranlılar (rus qaynaqlarında bəzi hallarda Azərbaycan türkləri iranlılar şəklində yazıldığı üçün burada Azərbaycan türkləri nəzərdə tutulur – İ.M.) və az sayda ermənilər yaşayırdı. İranlıların (Azərbaycan türklərinin) sayı 710 evədək, ermənilərin sayı isə 70 evədək idi. Şamaxı şəhərinin ətrafında aullarda yaşayan tərəkəmə əhalinin

---

[1] Абдуллаев Г.Б. Из истории Северо-Восточного... с. 16.

[2] Ахвердов А. И. Описание Дагестана. 1804// РГАДА. ф. Ермоловых, д. 319, лл.1-22; Memmedova İ. A.g.m., s. 16.

[3] Краткое историческое описание северной и южной части Дагестанской Персии // РГВИА, ф. 846, оп. 16, д. 18486, лл. 67, 71.

[4] Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, Bakı, 2002, s. 33.

[5] Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, s. 38; Bayramova N. Şamaxı xanlığı, B. , 2009, s. 55.

[6] Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793, s. 10.

[7] Биберштейн М. Описание провинции расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура // AMEA Tİ EA, f. 1, siy 2, iş 467, s. 22.

[8] Серебров А.Г. Историко-этнографическое описание Дагестана. 1796 г. // ИГЭД, с. 179.

sayı 840 ailə təşkil edirdi. Şamaxı xanlığının 38 kəndində 2700 evədək Azərbaycan türkü, 6 erməni kəndində isə 230 evə yaxın erməni yaşayırdı.[1]

**Cədvəl 8**

| “Şirvanın[2] təsviri”nə görə 1796-cı ildə xan və bəylərə məxsus şəhər və kəndlərdəki ailələrin etnik tərkibi | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Kimə məxsus olduğu** | **İranlılara[3]** | | | **Ermənilərə** | | **Cəmi** | |
| | **şəhər** | **kənd** | **tərəkəmə** | **şəhər** | **kənd** | **ev** | **nəfər** |
| | ev | ev | Ailə | ev | ev | | |
| Şamaxı xanına | 710 | 2700 | 840 | 70 | 230 | 4550 | 13650 |
| Mustafa bəyə | 23[4] | 159 | ---- | ---- | 60 | 233 | 699 |
| Avuzbaşına[5] | 125 | 400 | ---- | ---- | 180 | 705 | 2115 |
| Məhəmməd bəy Rud-barlı və Səfi xan Muğanlıya[6] | | 630[7] | 470[8] | ---- | ---- | 1100 | 3300 |

**Mənbə:** РГВИА, ф.846, оп.16, д.18474. ч.I-II.

Cədvəl 8-dən məlum olur ki, Şamaxı xanına məxsus həyətlərin sayı 4550, burada yaşayanların sayı isə 13650 nəfər olmuşdur. Şamaxı xanına aid 4550 evin 4250-si Azərbaycan türklərinə, 300-ü isə ermənilərə məxsus olmuşdur. Şamaxı xanına məxsus ailələrin 93,4%-nin iranlılardan, 6,6%-nin isə ermənilərdən ibarət olması burada Azərbaycan türklərinin böyük əksəriyyət təşkil etməsinin göstəricisidir.

Cədvəl 8-də yer alan Mustafa bəyin mülkü Şamaxı xanından asılı deyildi. Mustafa bəyin mülkünün mərkəzi Moçaqi kəndi idi və burada iranlılara (Azərbaycan türklərinə-İ.M.) məxsus 23 həyət qeydə alınmışdı. Azərbaycan türklərinə məxsus 12 kənddə 159-a yaxın ev, ermənilərə məxsus 3 kənddə isə 60-a yaxın ev var idi. [9]

Cədvəl 8-dən göründüyü kimi Avuz Başında 525 ev Azərbaycan türklərinə, 180 ev isə ermənilərə məxsus olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Avuz Başı Şamaxı xanlarının himayəsində idi.[10]

Cədvəl 8-dən göründüyü kimi, iki mahaldan ibarət Cavad mülkünü idarə edən Səfi xan Muğanlı və Məhəmməd xan Rüdbarlıya məxsus kənd və tərəkəmə elində ermənilər qeydə alınmamışdı.

Səyyah Hacı Zeynalabdin Şirvanin məlumatına görə Şamaxı şəhərində 6 minə yaxın ev var idi[11].

XIX əsrin əvvəllərində baş verən hərbi əməliyyatlar zamanı Şamaxı xanlığına aid olan ərazilərdən əhalinin ya geri çəkilən qacar qoşunları tərəfindən digər xanlıqların ərazisinə aparılması,

---

[1] РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 40.
[2] “Şirvanın təsviri” termini ilə Şamaxı xanlığını deyil, coğrafi ərazi olaraq Şirvan nəzərdə tutulur.
[3] Azərbaycan türklərinə
[4] Mustafa bəyin mülkünün mərkəzi Moçaqi kəndində
[5] Bu adı Hovuzbaşı şəklində yozmaq olar.
[6] Cavad mülkü adlanırdı.
[7] Məhəmməd bəyə Rudbarlıya məxsus idi.
[8] Səfi xan Muğanlıya məxsus idi.
[9] РГВИА, ф. 846, оп. 16, д. 18474, ч.I, л. 40; Memmedova İ. Güney Kafkasya’nın Türk-Müslüman Ahalisi XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılın Başlarında (Rusya Arşiv Belgelerine Göre). // TURKUAZ Uluslararası Türk Dünyası Bilimsel Araştırmalar Dergisi, 1 (1). Ankara, Eğitim ve Bilim Politikaları Araştırma Derneği, 2020, s. 14.
[10] Географическое описание Ширванской провинции. Владение Шамахи, Аузе Баши, Баки, Сальян, Рудбары и Джевата. Учинено Черноморским гранодерского батальона майором Аверьяном Серебровым по знаемости его тех мест и языков обитающих там жителей во время снятия земли той на карту обер квартермистром Иваном Дренякиным, при помощи его же Серебрякова в 1796 году, под распоряжением обер квартермистра подполковника и ковалера Лена // РГВИА, ф.846, оп.16, д.18474, ч. II, л. 63.
[11] Babaxanov, R. Seyidov F., Hacı Zeynalabdin Şirvani (böyük səyyah və alim). Bakı, 1961. s. 20.

ya da sakinlərin özlərinin digər xanlıqların ərazisinə getməsi sənədlərdə öz əksini tapmışdır. 1806-cı ildə Şamaxı xanı Mustafa xanın gen.-mayor baron Rozenə yazdığı məlumatdan məlum olur ki, qacar qoşunları geri çəkilərkən xanın tabeliyində olan Muğan, Rüdbar və Qarasubasardakı 2000 evdən çox sakini (Azərbaycan türklərini-İ.M.) Lənkəran xanlığına aparmışdı.[1] Qraf Qudoviçin Şamaxı xanı Mustafa xana 12 oktyabr 1807-ci il məktubundan, Şamaxı xanının təbəəsi olan 80 ailənin Cəbrayıl yüzbaşı ilə birlikdə, eyni zamanda Ərəbi adlanan 60 ailənin də Şəki xanlığına getdiyi və onların Cəfərqulu xan tərəfindən qəbul edildiyi məlum olur. Qraf Qudoviç məktubunda onların mütləq geri qaytarılacağını Mustafa xana vəd edirdi.[2] Qraf Qudoviçin Şamaxı xanı Mustafa xana yazdığı 26 iyul 1808-ci il məktubunda Lənkəran xanı Mir Mustafa xanın torpaqlarında saxlanılan 2 min ailənin mütləq geri, Şamaxı xanlığına qaytaracağına söz verirdi.[3] Buradan məlum olur ki, Birinci rus-qacar müharibələri dövründə xanlıqların əhalisinin birindən digərinə könüllü və ya məcburi yerdəyişməsi baş verirdi

1820-ci ilin məlumatına görə Şamaxı xanlığının 36 kəndində yaşayan 771 erməni ailəsinin hamısının Qarabağ məliklərindən gəlmə olduğu bildirilir[4].

1826-cı ildə Şirvan əyalətində 52 min nəfər hər iki cinsdən olan tatar, 13 min nəfər isə hər iki cinsdən olan erməni yaşayırdı[5].

1831-ci ildə keçmiş Şamaxı xanlığının ərazisində 21076 ailə Azərbaycan türkü və 1822 erməni ailəsi qeydə alınmışdı[6]. Həmin ildə Köhnə Şamaxı şəhərində 1889 tatar evi (4711 nəfər kişi), 225 erməni evi (541 nəfər kişi, 527 nəfər qadın) olduğu bildirilir[7].

“Qafqazarxası əyalətlərin icmalı”na görə, Şirvan əyalətinin sakinləri içərisində tatar, iranlı, erməni, yəhudi və ərəblər vardı; sakinlərin böyük əksəriyyətini təşkil edən tatarlar çoxsaylı tayfalardan ibarət idi. İcmalda ermənilərin Şirvan əyalətinə gəlmə olduqları, yəni XIII əsrin ikinci yarısında bu əyalətə gəldikləri bildirilir, buradakı yəhudilərin sayının cüzi olduğu, iranlı və ərəblərlə birlikdə tatarların sayının kişi cinsi olmaqla 62934 nəfərdən, ermənilərin 6375, yəhudilərin isə 332 nəfərdən ibarət olduğu qeyd olunurdu.[8]

“Qafqazarxası əyalətlərin icmalı”nda 1831-ci ilin kameral təsvirinə əsaslanaraq Şirvan əyalətində 22922 ailə olmaqla kişi cinsindən olan cəmi 69627 nəfərin qeydə alındığı, əhalinin 389 icmada və məhz Köhnə Şamaxı şəhərində, Salyan adasında, 387 kənddə və tərəkəmə (elat) obalarında yerləşdiyi bildirilirdi. Şirvanda 200 qaraçı ailəsindən ibarət iki tərəkəmə obası da vardı, onlar zahiri görkəminə, adət-ənənəsinə və həyat tərzinə görə Şirvan əyalətinin digər xalqlarından fərqlənirdilər. Dağlarda Ləhiş (Lahıç-İ.M) mahalında fizionomiya və əxlaqi keyfiyyətləri ilə tatarlardan fərqlənən tayfa da yaşayırdı.[9]

1832-ci ilin məlumatına görə isə Köhnə Şamaxı şəhərində 5000 nəfər tatar, 566 nəfər erməni, Salyan adasında 6951 tatar, Şirvan əyalətinin kənd və qışlaqlarında 50983 nəfər tatar, 5809 nəfər erməni yaşayırdı[10].

Bütün bunlar Şamaxı xanlığının ərazisində əsasən Azərbaycan türklərinin yaşadığını, bu ərazilərə sonradan yerləşən xristianların isə azlıq təşkil etdiklərini deməyə əsas verir

**Lənkəran xanlığı.** Lənkəran xanlığı şərq tərəfdən Xəzər dənizi, cənubdan Rəşt mahalına bitişik Denyaçal adlanan mahalla, Ərdəbil səmtindən isə Ərdəbil torpağını Lənkəran xanlığının mahallarından biri olan Vilgic mahalından ayıran Qarasu çayı ilə hüdudlanır. Qərbdən Zuvand,

---

[1] АКАК, т. III, д.546, с.301.
[2] АКАК, т. III, д. 565, с. 309.
[3] АКАК, т. III, д. 572, с. 314.
[4] Описание Ширванской провинции составленное в 1820 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, ген-май. Князем Мадатовым и действительным статским советником Могилевским. Тифлис, 1867, л 18-145.
[5] Кавказский сборник. Т. 22, л. 60.
[6] АРДТА, f. 24, siy. 1, iş 328.
[7] АРДТА, f. 24, siy. 1, iş 348; Мамедова И.М. Влияние переселенческой... с.. 35.
[8] ОРВЗ, ч. III, с. 73-74.
[9] ОРВЗ, ч. III, с. 62, 75.
[10] ОРВЗ, ч. IV, с. 361, таблицаВ; Мамедова И.М. Влияние переселенческой... с. 35.

Drığ, Ucarlı mahallarının sonu Qaracadağ və Ərşəqin kənarlarına bitişirdi[1]. Şimal sərhəddi Bolqarçaydan bir az yuxarı, Muğan düzünün bir hissəsi ilə, şərqdə Ağqoşa çayı, Qızılağac körfəzi və yenidən Xəzər dənizi ilə əhatələnirdi[2].

XVIII əsrdə xanlıqda yaşayan əhalinin sayı haqqında yekdil fikir yoxdur. Ümumimiyyətlə, XVIII əsrdə Lənkəran xanlığının ancaq müsəlman türk və talış əhalisi haqqında danışmaq olar. Çünki, bu dövrdə xanlığın ərazisində xristian əhali yaşamırdı. Lənkəran xanlığının ərazisində xristian əhali yalnız Rusiya işğalından sonra yerləşmişdir.

1717-ci ildə Lənkəran xanlığının Lənkəran şəhərində 200 ev, Astara şəhərində isə 50 ev müsəlman qeydə alınmışdır[3]. S. D. Burnaşevin məlumatına görə Qara xanın hakimiyyəti dövründə (1747-1786) Lənkəran xanlığında 4 minədək həyət var idi[4].

1813-cü il Gülüstan müqaviləsinin şərtlərinə görə Lənkəran xanlığına məxsus Gərgənrud, Nəmin və Zuvand Qacarlar dövlətinin tərkibinə keçmiş və xanlığın Ənzəli və Ərdəbil tərəfdən olan sərhədi dəqiqləşdirilməmişdi.[5] Xanlığın dəqiqləşdirilməmiş ərazilərinin kimə məxsus olduğu müəyyən edilmədiyindən burada yaşayan tayfaların bəziləri ya Qacarlar dövlətinə, ya da Şamaxı xanlığının ərazisinə getmişdilər.

Leqkobıtova görə isə xanlıqda 6500 müsəlman evinin 22750 nəfərini kişilər təşkil edirdi[6]. Əgər xanlıqlar dövründə Lənkəran xanlığında yaşayan müsəlman ailə üzvlərinin sayını təqribi olaraq 7 nəfərə vursaq, onda əhalinin sayı 45500 edər. P. Zubova görə Lənkəran xanlığında 15502 kişi əhali[7], başqa bir məlumata görə isə 40 min nəfər idi[8].

Bir arxiv sənədində XIX əsrin əvvəllərində burada 34235 nəfər əhali yaşadığı göstərilir[9]. Nəzərə alsaq ki, XIX əsrin əvvəllərində Lənkəran xanlığının ərazisinin bir hissəsi Qacarlar dövlətinin tərkibində qalmışdır, onda buranın müsəlman əhalisinin sayının 40 mindən çox olduğunu güman etmək olar.

Lənkəran xanlığının demək olar ki, bütün meşəsiz düzənliklərində o vaxt rus mənbələrində tatar adlandırılan Azərbaycan türkləri yaşayırdılar.[10] Səbidəşt sahəsinin bütün dağlıq və dağətəyi zonaları və qəzanın meşəsiz düzənlikləri Azərbaycan türklərinin məskəniydi. Azərbaycan türklərinə aid olan aşağıdakılardır: Perimbel, Dərvişbəyli, Panavand, Cürəli, Dilağarda (deleqardin və yaxud canşalin), Şahsevən, Mahmudlu və qruplar: Səbidəşt (Səfidəşt –İ.M.), Arus, Adınabazar, Ərkivan və İrandan gəlmələr. Ərkivanlılar düzən rayonun cənub hissəsində yaşayır, səbidəşt (səfidəşt –İ.M.), arus, adınabazarlılar isə Qacarlar dövlətinə birləşən dağlıq və dağətəyi əraziləri tuturdular. Şahsevənlər Yeddioymaq və Qədirli kəndlərində, mahmudlular Viləşçayın yaxınlığındakı düzən rayonda yerləşən Mahmudlu kəndində, dilağardalar və ya canşalinlər İnci dərəsindən İnciçay boyunca yerləşmiş, Qacarlar dövlətindən gəlmələr, eləcə də tərəkəmə perimbel və panavandlar isə başlıca olaraq meşəsiz dağ ətəklərində, qismən də düzənlikdə yaşayırdılar.[11]

Astara, Zuvand mahallarının və Səfidəştin cənub-şərq hissəsində talışlar yaşayırdı.[12] Zelinskiyə

---

\[1] Səid Əli Kazımbəyoğlu. Cəvahirnamei-Lənkəran (Tərcümə Rauf Şeyxzamanlınındır). B., 2000, s. 9.

[2] Легкобытов В., Талышинское ханство// ОРВЗ, ч. III, Санкт-Петербург, 1836, s. 175.

[3] Сообщение путешественников XIII-XVIII вв. об Азербайджане (составил Ямпольский), Баку, 1957, с 597-598.

[4] Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793, s. 11.

[5] Мамедова И. О причинах поздней ратификации Гюлистанского договора // Вопросы истории. № 4, Москва, 2008, с. 155-156.

[6] Легкобытов В., Талышинское ханство// ОРВЗ, ч. III, Санкт-Петербург, 1836, с. 198.

[7] Зубов П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель в историческом, этнографическом, финансовом и торговом отношениях. Ч. IV, СПб., 1835, с. 153.

[8] Məhəməməd Həsən Vəlili, adı keçən əsəri, s. 23.

[9] Azərbaycan Milli Elmlər Akademiyası A. A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi (AMEA Tİ EA), inv. 1795 (1), iş 43, v. 134-135.

[10] Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе, т.I, книга II, Санкт-Петербург, печатано в типографии Департамента уделов, 1871, s. 328.

[11] Кистенев Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии. //Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.VII, Тифлис, тип. Меликова и А.А. Михельсона, 1887, с. 550-551; Məmmədova İ. Lənkəran xanlının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri, namizədlik dissertasiyası, Bakı, 2005, s. 43.

[12] Dubrovin N.F., a.g.ə., s.328.

görə talışlar Lənkəran qəzasının Astara, Drığ, Talış mahallarında və Zuvand dağlarında yaşayır, həmçinin Pornaim sahəsinin bir hissəsini və Qarayar çayına birləşən düzləri tuturdular.[1]

Kistenevin məlumatına görə, talışlar etnoqrafiq cəhətdən yekcins deyildilər və 5 qrupa - talışların özünə, pornaim, alar, oratta (oyrat[2] –İ.M.) və zuvanda bölünürdülər. Kistenev Qarayar çayına birləşmiş düzlərin səhradabad və alar icmaları tərəfindən tutulan hissəsində talışların yaşadığını göstərirdi. Zuvandlılar öz növbəsində drığ, piranlı və zuvanda bölünürdü. Birincilər (yəni talış, pornaim, alar, oratta - İ.M.) bütün sahilboyu meşələrdə, zuvandlılar isə Zuvand dağının cənub-qərb hissəsində, piranlılar şimal-şərq hissəsində və drığlılar isə bütün Drığ mahalında yaşayırdılar. Dörd pornaim kəndi Viləşçayla Şaqlatük çayının arasında Pornaim adlanan dağlıq ərazinin cənub hissəsində yerləşirdi; orattalılar və alarlar tərəkəmə idilər. Yayı öz yaylaqlarında, qışı isə birincilər bütün meşələrdə, ikincilər isə Qarayar çayı yaxınlığında qışlaqlarda keçirirdilər.[3] Onu da qeyd etmək lazımdır ki, Kistenev yanlış olaraq alar və orattaları talış hesab edir.

Səfidəşt nahiyəsinə aid olan perimbel, dilağarda və şahsevənlər, Alar və Drığ nahiyələrinin kiçik hissəsi tərəkəmə həyat tərzi keçirirdilər. Tərəkəmə ailələrin sayı 1300-ə çatırdı.  Əvvəlki vaxtlarda (yəni xanlıqar dövründə - İ.M.) Dilağarda 600, Perimbel 300, Səfidəşt 470, Alar 80 ailəyədək idi. Elatlar qışı əsasən Muğan düzündən axan çayların: Həməşərə, Sirixçay, Qarayar və Muğanda yerləşən Göytəpə, Çinliha, Yedditəpə, Uzuntəpə və s. vadilərdə, yayı isə Alar dağlarında keçirirdilər.[4]

V.Leqkobıtov səfidəştlilərin türk dilində, perimbel və alarların demək olar ki, talış dilində, dilağardaların isə deformasiyaya uğramış talış dilində danışdıqlarını yazırdı.[5] Lakin Kistenevin vermiş olduğu məlumat Leqkobıtovun məlumatından fərqlənir. Onun yazdığına görə perimbellər və dilağardalar, həmçinin səfidəştlilər tatar (Azərbaycan türkü – İ.M.) tayfaları idilər.[6] Sonrakı dövrlərin siyahıyaalmalarına, konkret olaraq 1921-ci ilin əhali siyahıyaalmasına[7] müraciət edildikdə perimbellərin və dilağardaların Azərbaycan türkü kimi qeydə alındığı məlum olur. Məhəmməd Həsən Vəlili qaraqoyunluların bir ailəsinə dilağarda adının sonuncu Qaraqoyunlu hökmdarı Cahan şah tərəfindən verildiyini bildirirdi.[8] Yuxarıda Kistenev Dilağarda və Perimbel tayfalarını türklərin sırasına aid etdiyi üçün Leqkobıtovun onların deformasiyaya uğramış talış dilində danışdıqlarını yazmasının əsası yoxdur. Eyni zamanda Leqkobıtovun Alar tayfalarının talış dilində danışmasını yazması, Kistenevin isə alar və orattaları (oyratları –İ.M.) talışlara aid etməsi də yanlışdır. Alar tayfasının nümayəndəsi və araşdırıcısı Bilal Alarlı "Alar və alarlar"[9] kitabında orattalar və alarların türk tayfası olduğunu sübut etmişdir. Bilal Alarlı alarları türk monqol mənşəli Oyrat tayfalarının bir qolu sayaraq, onların Lənkəran xanlığı ərazisinə XIII əsrdə köçürüldüklərini və bu ərazidə yerləşən alarların Perimbel və Səfidəşt  tayfaları ilə də qohum olduqlarını qeyd edir. Bilal Alarlı, 1922-ci ildən 1948-ci illədək altaylıların özlərini oyrat, dillərini də oyrat dili adlandırdıqlarını və N.A.Baskakovun 1972-ci ildə "Altay-oyrat dilinin şimal dialekti" adlı monoqrafiya nəşr etdirdiyini, L.Potapovun 1933-cü ildə "Oyratiya tarixinin oçerki" kitabında, Saqalayevin 1984-cü ildə nəşr etdirdiyi əsərində də oyratları türk xalqı hesab etdiyi, eləcə də Həmdullah Qəzvinin "Zeyl-e tarix-e qozide" kitabında "türk oyrat qəbiləsi" ifadəsinə əsaslanaraq oyratların, yəni orattalıların türk olduğunu bildirir. B.Alarlı çox doğru olaraq qeyd edir ki, alarlar dilağarda tayfasının cahanşahlı tirəsinə daxil olmuşdur.[10]

---

[1] Зелинский С.П. Племенной состав: религия и происхождения государственных крестьян. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.II, Тифлис, тип. А.А. Михельсона, 1887, с. 6.

[2] Oratta oyrat adının dəyişikliyə uğramış formasıdır.

[3] Kistenev D.A., a.g.ə., s. 549-550; Məmmədova İ., a.g.nam.dis., s. 43.

[4] Leqkobıtov V., a.g.ə., s. 248; Məmmədova İ., a.g.nam.dis., s. 69.

[5] Leqkobıtov V., a.g.ə., s. 250-251.

[6] Kistenev D.A., a.g.ə., s. 550-551.

[7] Азербайджанская сельскохозяйственная перепись населения 1921, т.I, Итоги, выпуск III, Ленькоранский уезд, Б., изд. АЦСЦ. 1922, с. 42.

[8] Məhəmməd Həsən Vəlili (Baharlı), Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat), Бakı, Azərnəşr, 1993, s.53.

[9] Alarlı Bilal. Alar və Alarlar, Bakı, Adiloğlu, 2003, s. 16.

[10] Alarlı B., a.g.ə., s.16-22, 44-45.

Drığ nahiyəsində 130-a yaxın oratta tayfası yaşayırdı. Germi nahiyəsinin şimal-qərbində yerləşən Ucarud mahalının əhalisi də Azərbaycan türkləri olmuşdur.[1] Ucarud mahalının Səfidəşt, Adınabazar, Alar və Dilağarda nahiyələrinin əhalisi Azərbaycan türkləri, Murənkuhun nahiyəsinin əhalisi isə talışlar idi. Onu da qeyd etmək lazımdır ki, Dilağarda, Səfidəşt, Alar, Perimbel, Oratta, Şahsevən, İnulin, Panavənd, Pornaim oymaqlarının hər birinin öz elbəyisi olmuşdur. Ərkivan mahalında 170 ailəyədək Şahsevən tayfaları yaşayırdı.[2]

XIX əsrin 40-cı illərində Lənkəran xanlığının ərazisi Kaspi vilayətinə daxil idi və Ərkivan, Lənkəran, Səfidəşt və Muğan sahələrinə bölünürdü. Ərkivan sahəsinin tərkibinə Ərkivan mahalı, Sinabazar çayı boyunca heç bir mahala məxsus olmayan kəndlər və Təklə, Soxulcan, Xançobanı və Bağdalı adlanan köçkünlər daxil idi. 1650 verst sahəni tutan Ərkivan sahəsinin 9232 nəfərdən ibarət əhalisinin hamısını tatarlar təşkil edirdi. Lənkəran sahəsi Lənkəran və Astara mahallarından ibarət olub 1350 verst sahəni əhatə edirdi. 12268 nəfərdən ibarət Lənkəran sahəsinin əhalisinin 12143-ü tatarlardan, 125-i isə ermənilərdən təşkil olunmuşdu. 1200 verst sahəni tiutan Səfidəşt sahəsi Drığ, Alar və Marinkum, Səfidəşt və Zuvand mahallarından ibarət idi və 10213 nəfərdən ibarət əhalisinin hamısı tatar idi. 2780 verst ərazidə yerləşən Muğan sahəsi Şirvan əyalətinin Muğan mahalından ibarət idi, 2552 nəfərdən ibarət əhalisinin hamısı tatar idi.[3] Kaspi vilayətinə daxil oan sahələrin etnik tərkibi aşağıdakı cədvəl 9-də verilmişdir:

**Cədvəl 9**

| **Kaspi vilayəti** | | | | | |
|---|---|---|---|---|---|
| **sahənin adı** | **sahənin tərkibi** | **ərazisi verstlə** | **tatar** | **erməni** | **cəmi** |
| Ərkivan | Ərkivan mahalı, Sinabazar çayı boyunca heç bir mahala məxsus olmayan kəndlər və Təklə, Soxulcan, Xançobanı və Bağdalı adlanan köçkünlər | 1650 | 9232 | --- | 9232 |
| Lənkəran | Lənkəran və Astara | 1350 | 12143 | 125 | 12268 |
| Səfidəşt | Drığ, Alar və Marinkum, Səfidəşt və Zuvand | 1200 | 10213 | --- | 10213 |
| Muğan | Şirvan əyalətinin Muğan mahalı | 2780 | 2552 | --- | 2552 |
| **Cəmi** | | **6980** | **34140**[4] | **125** | **34265**[5] |
| **%** | | **---** | **99,6** | **0,4** | **100** |

**Mənbə:** Обзор политического состояния Грузино-Имеретинской губернии, Каспийской области и Дербентского военно-окружного управления. Составил генерального штаба генерал-майор Меид. //РГВИА, ф.ВУА, д.56828, лл.32-34 с об.

Cədvəl 9-dən Ərkivan, Lənkəran, Səfidəşt və Muğan sahələri üzrə tatarların 99,6%, ermənilərin 0,4% təşkil etdiyi məlum olur. Onu da qeyd etmək lazımdır ki, ermənilər Lənkəran xanlığı ərazisinə 1813-cü il Gülüstan müaviləsindən sonra yaşamağa başlamışdılar və ticarət ilə məşğul olurdular. Sahələr üzrə tatarların böyük əksəriyyət təşkil etdiyi şəksizdir.

Lənkəran qəzasında yaşayan Azərbaycan türkləri və talışların təxmini olaraq say nisbətlərini təsəvvür etmək üçün XIX əsrin ikinci yarısına aid rəqəmlərə nəzər salsaq, qəzada 209 türk və 122 talış kəndinin, 8 türk və 4 talış elat icmasına məxsus kəndin olması[6] Azərbaycan türklərinin talışlara nisbətən demək olar ki, iki dəfə çox olmasını və əksəriyyət təşkil etdiklərini görərik.

*Lənkəran şəhərinin əhalisi.* Lənkəran şəhəri dağ çayı olan Lənkərançayın sol sahilində, 38°

---

[1] c.IV, s.4 علی رزم آرا، فرهنگ جغرافیائی ایران، جلد ۲، تهران- ارتش- ۱۳۲۸

[2] Məmmədova İ., a.g.nam.dis., s. 68-70.

[3] Обзор политического состояния Грузино-Имеретинской губернии, Каспийской области и Дербентского военно-окружного управления. Составил генерального штаба генерал-майор Меид. //РГВИА, ф.ВУА, д.56828, лл.32-34 с об.

[4] Arxiv sənədində yekun rəqəm səhv hesablanaraq 34110 yazılmışdır.

[5] Arxiv sənədində yekun rəqəm səhv hesablanaraq 34235 yazılmışdır.

[6] Парвицкий А.В. Численный состав государственных крестьян, // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.II, Тифлис, тип. А.А. Михельсона, 1887, с.145, с.99; Məmmədova İ., a.g.nam.dis., s. 43.

şimal enliyində və 48° 51′şərq uzunluğunda, çayın Xəzər dənizinə tökülən və türkcə «Xəzər dayazı» adlanan hissəsində yerləşirdi[1].

A. Volınski XVIII əsrin əvvəllərində Lənkəran şəhərində 200 evin, Suvorov isə 300 həyətin olduğunu bildirirdilər[2]. 1796-cı ildə Lənkəran şəhərində olmuş Zeynalabdin Şirvani isə burada 700 ev qeydə almışdı[3].

Berezin İ. N. üç yarım verstdən ibarət olan Lənkəran şəhərinin ətrafındakı ərazidə 3 minədək əhalinin yaşadığıın yazırdı[4].

XIX əsrin əvvəllərində şəhərdə 422 müsəlman evi vardı. Bunlardan 10 ev bəylərə, 43 ev vergiödəyənlərə, 192 ev maaflara, 120 ev sənətkarlara, 7 ev ruhanilərə, 70 ev bəy təbəələrinə məxsus idi[5].

1813-cü il Gülüstan müqaviləsindən sonra Lənkəran şəhərinin əhalisi azalmışdı[6]. Bu çar Rusiyasının müstəmləkə siyasətinin nəticəsi idi. Əvvəllər ermənilərin yaşamadığı Lənkəran xanlığının işğalından sonra burada da ermənilər məskunlaşmağa başladı. 1832-ci ildə artıq Lənkəran şəhərində 168 nəfər erməni yaşayırdı[7].

1849-cu il kameral təsvirinə görə Lənkəran şəhərində 125 bəy, 20 mirzə, 46 seyid, 56 molla, 92 müvəqqəti yaşayan, 699 maaf, 168 əkər, 290 bəy təbəəsi, 323 vergiödəyən tatar (Azərbaycan türkü – İ. M. ) kəndli, 66 erməni, 114 rus olmaqla ümumilikdə 1999 nəfər yaşayırdı[8]. Mənbədən göründüyü kimi. Lənkəran xanlığını Rusiya tərəfindən işğalından sonra şəhərin etnik tərkibi dəyişmiş, burada xristian əhali yaşamağa başlamışdır. Çar Rusiyasının müstəmləkə siyasəti, eyni zamanda xanlığın çar Rusiyası tərəfindən işğalından sonra xanlığın torpaqlarının bir qisminin Qacarlar İranına verilməsi nəticəsində Lənkəran xanlığının əhalisinin sayı azalmış, Rusiya imperiyasının tərkibində yaşamak istəməyən əhalinin miqrasiyası baş vermişdir.

XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Azərbaycanın Xəzəryanı xanlıqlarının əhalisinin etnik tərkibini özündə əks etdirən qaynaqlar araşdırılan dövrdə bu ərazilərdə türk-müsəlman əhalinin səksiz üstünlük təşkil etdiyini sübut edir. Öyrənilən dövrdə Azərbaycan ərazisində xristian ünsürü yad element olmuş, Rusiya imperiyasının Azərbaycanda özünə dayaq yaratmaq məqsədilə I Pyotrun hakimiyyət illərindən başlayaraq xristianların, xüsusilə də ermənilərin əzəli torparlarımızda süni surətdə yerləşdirilməsi nəticəsində meydana çıxmışdır.

**İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı**

1. Azərbaycan Milli Elmlər Akademiyası A. A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi (AMEA Tİ EA), inv. 1795 (1), iş 43.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (АРДТА), f. 10, siy. 1, iş 4.
3. ARDTA, f.24, siy.1, iş 21.
4. ARDTA, f.24, siy. 1, 1816-cı il, iş 51.
5. ARDTA, f. 24, siy. 1, iş 328.
6. ARDTA, f. 24, siy. 1, iş 348.
7. ARDTA, f. 24, siy. 1, iş 370.
8. Alarlı Bilal. Alar və Alarlar, Bakı, Adiloğlu, 2003.
9. Azərbaycan tarixi (3 clddə), I c., Bakı, 1958.

[1] Байрамалибеков Теймурбей. Ленкоран в прошлом// Научный Архив Института Рукописей НАН АР, шифр Д-698/28591, л.1; Байрамалибеков Теймурбей, Талышинский край в прошлом и настоящем времени// Научный Архив Института Рукописей НАН АР, шифр Д-685/28392, л. 1

[2] Azərbaycan tarixi (3 cilddə), I c., Bakı, 1958, s. 387.

[3] Hacı Zeynalabdin Şirvani, Bustan-üs-səyahə, Tehran, 1315, s. 524.

[4] Березин И.Н. Путешествие по Дагестану и Закавказью (с картинами, планами и видами замечательных мест), изд. II пополненное, ч. III, Казань, 1850, с. 114.

[5] Легкобытов В., Талышинское ханство// ОРВЗ, ч. III, Санкт-Петербург, 1836, с. 237-238.

[6] АКАК, т. V, док. 728.

[7] ОРВЗ, ч. IV, с. 361, таблица В; Мамедова И.М. Город Ленкорань и его население в период ханств// Провинциальный город в XVIII-XXI вв. (История, экономика, культура). Материалы международной научно-практической конференции. Махачкала, 2008, с. 30-38.

[8] ARDTA, f. 10, siy. 1, iş 4, v. 2.

10. Babaxanov, R. Seyidov F., Hacı Zeynalabdin Şirvani (böyük səyyah və alim). Bakı, 1961.
11. Bayramova N. Şamaxı xanlığı, Bakı, 2009.
12. Hacı Zeynalabdin Şirvani, Bustan-üs-səyahə, Tehran, 1315.
13. Hacıyev A. Dərbənd XIX – XX əsrlərdə (tarixi-etnoqrafiq tədqiqat), Bakı, “Turxan” NPB, 2017.
14. İbişov S. Quba xanlığının əhalisi, Bakı, 2004.
15. Məhəmməd Həsən Vəlili (Baharlı), Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat), Bakı , 1993.
16. Məmmədova İ. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda əhalinin etnik tərkibi, “İdeal-Print” MMC, Bakı, 2021.
17. Məmmədova İ. Lənkəran xanlıının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri, namizədlik dissertasiyası, Bakı, 2005.
18. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, Bakı, 2002.
19. Mustafazadə T.T. Quba xanlığı, Bakı., 2005.
20. Mustafazadə T.T. Quba əyalətinin kameral təsviri, Bakı, 2008.
21. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, 2002.
22. Səid Əli Kazımbəyoğlu. Cəvahirnamei-Lənkəran (Tərcümə Rauf Şeyxzamanlınındır). Bakı, 2000.
23. Memmedova İ. Güney Kafkasya’nın Türk-Müslüman Ahalisi XVIII. Yüzyılın İkinci Yarısı ve XIX. Yüzyılın Başlarında (Rusya Arşiv Belgelerine Göre). // TURKUAZ Uluslararası Türk Dünyası Bilimsel Araştırmalar Dergisi, 1 (1). Ankara, Eğitim ve Bilim Politikaları Araştırma Derneği, 2020, s. 10-24.
24. Абдуллаев Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-70 гг. XVIII века, Б., 1958.
25. Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения с Россией, Б., 1965.
26. Азербайджанская сельскохозяйственная перепись населения 1921, т.I, Итоги, выпуск III, Ленькоранский уезд, Б., изд. АЦСЦ. 1922.
27. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК), т. III, Тифлис, 1869.
28. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК), т. IV, Тифлис, 1870.
29. АКАК, т. V, док. 728.
30. Архив Внешней Политики Российской Империи (далее АВПРИ), ф. 77 (Сношение России с Персией), оп. 7, д. 158.
31. АВПРИ, ф. 77, оп. 7, д. 159.
32. Ахвердов А. И. Описание Дагестана. 1804// История, география и этнография Дагестана XVIII-XIX (далее ИГЭД), М., 1958, с. 213-229.
33. Ахвердов А.И. Описание Дагестана. 1804// РГАДА. ф. Ермоловых, д. 319, лл.1-22
34. Байрамалибеков Теймурбей. Ленкоран в прошлом// Научный Архив Института Рукописей НАН АР, шифр Д-698/28591.
35. Байрамалибеков Теймурбей, Талышинский край в прошлом и настоящем времени// Научный Архив Института Рукописей НАН АР, шифр Д-685/28392.
36. Березин И.Н. Путешествие по Дагестану и Закавказью (с картинами, планами и видами замечательных мест), изд. II пополненное, ч. III, Казань, 1850.
37. Биберштейн М. Описание провинции расположенных на левом берегу Каспийского моря, между реками Терек и Кура // AMEA Tİ EA, f. 1, siy 2, iş 467.
38. Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793.
39. Бутков П.Г. Выдержки из проекта отчета о персидской экспедиции в виде писем. 1796 г.// ИГЭД, М., 1958, с. 200-208.
40. Бутков П.Г. Материалы для новой истории Кавказа 1722-1801, ч. I, Санкт-Петербург, 1869.
41. Географическое описание Ширванской провинции. Владение Шамахи, Аузе Баши, Баки, Сальян, Рудбары и Джевата. Учинено Черноморским гранодерского батальона майором Аверьяном Серебровым по знаемости его тех мест и языков обитающих там жителей во время снятия земли той на карту обер квартермистром Иваном Дренякиным, при помощи его же Серебрякова в 1796 году, под распоряжением обер квартермистра подполковника и ковалера Лена // РГВИА, ф.846, оп.16, д.18474, ч. II.
42. Дубровин Н.Ф. История войн и владычества русских на Кавказе, т.I, книга II, Санкт-Петербург, печатано в типографии Департамента уделов, 1871.
43. Зелинский С.П. Племенной состав: религия и происхождения государственных крестьян. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края,

т.II, Тифлис, тип. А.А. Михельсона, 1887.

44. Зубов П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель в историческом, этнографическом, финансовом и торговом отношениях. Ч. IV, СПб., 1835.
45. Искендерова М. Бакинское ханство. Баку, 1999.
46. Кавказский сборник. Т. 22, Тифлис, 1901.
47. Камеральное описание города Дербента, составленное в 1831 году коллежским регистратором Хотяновским // Государственный Исторический Архив Азербайджанской Республики (далее ГИААР), ф. 24, оп. 1, д. 362, лл. 1-219.
48. Кистенев Д.А. Экономический быт государственных крестьян Ленкоранского уезда Бакинской губернии. //Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т.VII, Тифлис, тип. Меликова и А.А. Михельсона, 1887.
49. Краткое историческое описание северной и южной части Дагестанской Персии // РГВИА, ф. 846, оп. 16, д. 18486.
50. Легкобытов В., Талышинское ханство// ОРВЗ, ч. III, Санкт-Петербург, 1836.
51. Лопухин А.И. Журнал путешествия через Дагестан, 1718 г.//ИГЭД, М.1958, с.6-59.
52. Мамедова И.М. Влияние переселенческой политики Российской империи на этноконфессиональную ситуацию Азербайджана в начале XIX века // Вопросы гуманитарных наук. Москва, 2009, № 6 (44), с. 29-36.
53. Мамедова И.М. Город Ленкорань и его население в период ханств// Провинциальный город в XVIII-XXI вв. (История, экономика, культура). Материалы международной научно-практической конференции. Махачкала, 2008, с. 30-38.
54. Мамедова И.М. «Камеральное описание города Дербента» как один из источников в изучении населения города // «Актуальные проблемы науки и техники». Сборник научных статей II международной научно-практической конференции 15 июня 2010 г. Часть I, г. Кизляр, РД, с. 96-102.
55. Мамедова И. О причинах поздней ратификации Гюлистанского договора // Вопросы истории. № 4, Москва, 2008, с. 155-159.
56. О внутреннем устроении Кубинской провинции//АВПРИ, СРП, ф. 77. Оп. 7, д. 159.
57. Обзор политического состояния Грузино-Имеретинской губернии, Каспийской области и Дербентского военно-окружного управления. Составил генерального штаба генерал-майор Меид. //РГВИА, ф.ВУА, д.56828.
58. Обозрение российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях, ч.III- IV, СПб., 1836, таблица S.
59. Описание без карты провинциям в Дагестане по Каспийскому морю лежащем: Дербентской, Бакинской, Кубинской и Куринской // РГВИА, ф.846, оп.16, д. 18479.
60. Описание Ширванской провинции составленное в 1820 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, ген-май. Князем Мадатовым и действительным статским советником Могилевским. Тифлис, 1867, л 18-145.
61. Парвицкий А.В. Численный состав государственных крестьян, // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края, т.II, Тифлис, тип. А.А. Михельсона, 1887.
62. Российский Государственный Военно-Исторический Архив (далее РГВИА), ф. 846, оп. 16, д. 18474.
63. РГВИА, ф. 846, оп. 16, д. 18479.
64. РГВИА, ф. 846, оп. 16, д 18494.
65. РГВИА, ф. 846, д. 56828.
66. Ртищев Ф.Н. Сведения о Дагестане. 1813 // ИГЭД, М., 1958, с. 247-251.
67. Серебров А.Г. Историко-этнографическое описание Дагестана. 1796 г. // ИГЭД, М., 1958, с.173-196.
68. Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796 г.// ИГЭД, М., 1958, с. 138-156.
69. Сообщение путешественников XIII-XVIII вв. об Азербайджане (составил Ямпольский), Баку, 1957.
70. Стрейс Я.Я. Три путешествия (перевод Э.Бородиной, редакция А.Морозова), ОГИЗ-СОЦЭКГИЗ, 1935.
71. Тормасов А.П. Выдержки из «Ведомости», содержащие сведения о численности населения Дагестана. 1811// ИГЭД, М., 1958, с. 237-238.
72. Шнитников Ф.А. Описание Кубинской провинции.1832 г. //ИГЭД, с. 329-330.
73. Шнитников Ф.А. Описание Кубинской провинции.1832 г.// РГВИА, ф ВУА, д. 301.

علی رزم آرا، فرهنگ جغرافیائی ایران، جلد ۲، تهران- ارتش- ۱۳۲۸ c.IV, s.4